RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 234 (9689) 24 oktyabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

## Azərbaycan beynəlxalq mövqeyini möhkəmləndirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfərə gedib. Səfər çərçivəsində Prezident İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Rusiyanın "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref, Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik, Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit və BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşləri olub.

Kazanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından XVI BRICS Sammitinin keçirilməsi münasibətilə verilən rəsmi ziyafətdə Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib.

→ 2-3

## Azərbaycan Macarıstan ilə strateji tərəfdaşlığın daha da dərinləşməsinə xüsusi önəm verir

### Macarıstanın Baş naziri zati-aliləri cənab Viktor Orbana



Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Qarşılıqlı inam və etimada əsaslanan və gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişləndirilməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk. Ali səviyyədə qarşılıqlı anlaşma və fəal siyasi dialoqun mövcudluğu bunun üçün əlverişli zəmin və imkanlar formalaşdırmışdır.

Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvilərdə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2024-cü il*

## Prezident İlham Əliyev terror aktı ilə bağlı Türkiyə Prezidentinə başsağlığı verib

### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu xain terror aktını şiddətlə qınayır, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2024-cü il*

## Azərbaycan erməni təəssübkeşlərinə gözdağı verir

Hər zaman demokratiya və insan hüquqlarından dəm vursalar da, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yüz minlərlə soydaşımızın yaşamaq və mülkiyyət hüquqlarının pozulmasına laqeyd münasibət göstəriblər.

Bu baxımdan Vətən müharibəsində torpaqlarını işğaldan azad edən, ötən ilin sentyabrında Qarabağda erməni separatizminə son qoyan Azərbaycan həm də sözügedən erməni təəssübkeşlərinə, Qərbdə mənzillənən antiazərbaycançı şəbəkəyə qalib gəldi, onların riyakarcasına müdafiəsində dayandıqları işğal siyasətini, ikili standartları darmadağın etdi. İndi bu bədnam qaragüruh Azərbaycanın zəfəri ilə barışa bilmir, ölkəmizi öz milli haqqını bərpa etməkdə günahlandırır.

Ermənistanın Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamasına, Fransanın müstəmləkəçilik siyasətinə, bəzi Avropa ölkələrində insan haqları sahəsindəki problemlərə, islamofobiyaya heç vaxt münasibət bildirməyən, onlara göz yuman siyasi dairələrin Azərbaycana böhtan atması yalnız mənəviyyatsızlığın göstəricisidir. Onların nə deməsinin, nə qəbul etməsinin isə qalib Azərbaycan üçün zərrə qədər əhəmiyyəti yoxdur. Azərbaycan bundan sonra da öz yüksəlişi və uğurları ilə onlara gözdağı verəcək.

→ 5

## Qarabağ və Şərqi Zəngəzur kreativ sənaye zonasına çevrilir

Ağdam Sənaye Parkının rezidentlərindən biri də "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodudur. "Rail Trans Service" MMC 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. "Rail Trans Service" MMC sənaye parkının 1,6 hektar ərazisində "Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı" layihəsini həyata keçirəcək. İnvestisiya dəyəri 8,92 milyon manat olan müəssisədə 60 nəfər işlə təmin ediləcək.




"Mister Decor" MMC isə divar kağızları istehsalı zavodudur. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. İllik gücü 2,1 milyon ədəd rulon divar kağızının istehsalı olan müəssisədə 76 nəfərin məşğulluq problemi həll olunacaq.

Alman texnologiyasından istifadə edilən müəssisədə istehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə ixracı da planlaşdırılır.

"Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodu da fəaliyyətə başlayıb. Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalıdır.

→ 9

## Paşinyan Ermənistanı cəhənnəmə çevirir

### Ağır sosial-iqtisadi və siyasi vəziyyət əhalinin etirazlarını artırır

Paşinyan hakimiyyətə gəldikdən sonra yalnız müasir məmurların həyatı və gündəlik həyatı fərqli nizama keçib. Onlar nəinki varlanıblar, pul və bahalı mənzillərin, bizneslərin sahibi olublar, daha "adi paltar"la işə getməklə kifayətlənmirlər. Düşünürlər ki, yeni, bahalı, yüksəksəviyyəli olmalıdırlar. Vergi ödəyicilərinin hesabına milyonlarla, milyardlarla pul xərcləyirlər ki, xidməti maşınlarda gəzsinlər. Onların hansı xeyirxah əməllərinə görə belə səxavətlə mükafatlandırıldıqları isə bəlli deyil. Ölkəni cəhənnəmə, insanların həyatını kabusa çeviriblər. Həllini gözləyən minlərlə təcili və zəruri problemlərin olmasına baxmayaraq, özlərinə bahalı "padavat"lar alır, xərclərini artırırlar.

Qeyd edilib ki, hökumət 110 min dollara qədər onlarla bahalı avtomobil almaq üçün 1 milyard dramdan çox vəsait ayıra bilər. Belə görünür ki, xidməti avtomobillərin alınması bu ölkənin ən aktual problemidir. Başqa heç bir problemi yoxdur. Təhlükəsizlik, müdafiə, sosial və digər vacib məsələlərdənsə xidməti maşınlara üstünlük verirlər. Onları camaatın fikri maraqlandırmır, xalq nə düşünəcək, nə düşünməyəcək, bunun önəmi yoxdur. Əsas odur ki, onların rahatlığı yerində olsun.

Bu yaxınlarda 644 min dollar ödəməklə müxtəlif rütbəli dövlət orqanlarının məmurlarına xidmət etmək üçün 21 xidməti avtomobil alınıb. İctimai nəqliyyatın problemlərini həll etmək, xidmət keyfiyyətini yüksəltmək, avtobus parkını yeniləmək əvəzinə, xidməti avtomobil parkını təzələyirlər ki, məmurlar ictimai nəqliyyatla gedib onun bütün çətinliklərini görməsinlər, xüsusən səhər saatlarında zəhmət çəkməsinlər.

→ 5

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

# Azərbaycan beynəlxalq

## Kazan Beynəlxalq Hava Limanında qarşılanma







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfərə gedib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının təyyarəsini Kazan Beynəlxalq Hava Limanına enərkən hərbi helikopterlər müşayiət edib.

Kazan Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov qarşıladı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Kazanda "Sberbank"ın İdarə Heyətinin sədri ilə görüşü olub



**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, German Qref rəhbərlik etdiyi bankın həyata keçirdiyi işlər, o cümlədən bankın maliyyə sektoru ilə yanaşı, rəqəmsallaşma həlləri vasitəsilə səhiyyə, sosial, təhsil və digər sahələrlə bağlı fəaliyyəti barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. O, Azərbaycanın sürətli iqtisadi yüksəlişini və sosial inkişaf meyillərini xüsusi qeyd etdi.

Görüşdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi ilə görüşü olub













**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan **Rüstəm MİNNİXANOV** dedi:

- İlham Heydər oğlu, fürsətdən istifadə edərək Rusiya-Azərbaycan münasibətləri çərçivəsində respublikamıza göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim. Biz bunu çox yüksək qiymətləndiririk və əlbəttə ki, bizim Prezidentin belə bir dövlət səfərini həyata keçirdiyinə görə fəxr edirik. Həmin səfəri çox yaxşı işıqlandırdılar. Bu yaxınlarda Siz bizim rəhbəri təbrik etdiniz, çoxlu işgüzar məsələ var idi. BRICS-i bizə etibar ediblər. Vaxt tapıb gəlməyiniz və iştirak etməyiniz bizim üçün böyük şərəfdir. İcazə versəniz, həmkarlarımızla gördüyümüz işlərlə bağlı bəzi məsələləri məruzə etmək istərdim.

**Prezident İlham ƏLİYEV** dedi:

- Rüstəm Nurqaliyeviç, sağ olun. Bir daha qardaş torpaqda olmağıma şadam. İlk növbədə, Sizi və Tatarıstan Respublikasının bütün sakinlərini bu əlamətdar hadisə - BRICS sammitinin, həmçinin "BRICS+"un keçirilməsi münasibətilə təbrik etmək istərdim. Bu, Rusiya Federasiyası rəhbərliyinin respublikaya, şəxsən Sizə, Tatarıstan vətəndaşlarına xüsusi münasibətinin təzahürüdür, həmçinin Tatarıstanın Sizin rəhbərliyinizlə nail olduğu potensialın göstəricisidir. Çünki belə bir irimiqyaslı sammitin keçirilməsi, əlbəttə ki, tədbirlərin, dövlət başçılarının ikitərəfli görüşlərinin təşkili üçün resursların, infrastrukturun, o cümlədən mehmanxana şəbəkəsinin olmasını tələb edir. Ona görə də əvvəlcədən səmimi təbriklərimi çatdırıram. Əminəm ki, hər şey ən yüksək səviyyədə keçəcək.

Əlbəttə, Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir. Siz də qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti bu ilin avqustunda Azərbaycana dövlət səfəri etdi. Bundan sonra da biz görüşmüşük. Beləliklə, ikitərəfli münasibətlərin dinamikası, o cümlədən Tatarıstan-Azərbaycan ikitərəfli formatı çox yaxşıdır. Bu gün onları müzakirə edəcəyik. Bizim yoldaşlarımız da görüşümüzə hazırlıqlı gəliblər. Zənnimcə, yaxın vaxtlarda yaxşı nəticələrin şahidi olacağıq. Fürsətdən istifadə edərək, bir daha təbriklərimi çatdırmaq və Sizin üçün münasib bir vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm.

**Rəis Rüstəm MİNNİXANOV:** Sağ olun. Biz həm işgüzar, həm də turistik baxımdan imkan taparaq dünyasəviyyəli kompleksləri qiymətləndirdik və onlara heyran olduq. Mən hələ Bakını demirəm. Bakı bizim üçün işləri necə təşkil etmək, təcrübə toplamaq baxımından özlüyündə bir örnəkdir. Bizim artıq ziyarət etdiyimiz turistik dağ-xizək mərkəzi isə, əlbəttə, hamımızı valeh etdi. Bunun üçün Sizə çox sağ olun deyirik.

**Prezident İlham ƏLİYEV:** Gələ bilərsiniz. Elə mövsüm də yenicə başlayır, gəlin. Yeri gəlmişkən, artıq ilk qar yağıb.

**Rəis Rüstəm MİNNİXANOV:** Biz Sizin pərəstişkarınızıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Belə bir sürpriz haqqında təyyarədə öyrəndim. Sağ olun.

Azərbaycan Prezidentinin Tatarıstanın ali dövlət mükafatı ilə təltif olunması haqqında Fərman oxundu: "Tatarıstan Respublikası Rəisinin Fərmanı ilə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə Prezident İlham Əliyev "Dostluq" ordeni ilə təltif olunur".

**Rəis Rüstəm MİNNİXANOV:** Bu, "Sollers" şirkətidir.

**Prezident İlham ƏLİYEV:** Bilirik.

**Rəis Rüstəm MİNNİXANOV:** Həmin avtomobillərdən ən yaxşı yerlərdə istifadə etmək üçün xahiş etmişdik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, Rüstəm Nurqaliyeviç. Belə yüksək mükafata görə təşəkkür edirəm. Bu, mənim üçün həqiqətən də böyük sürprizdir. Bu barədə təyyarə Kazana enəndə öyrəndim. Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. Bütün Azərbaycan xalqı adından, şəxsən öz adımdan bir daha Sizə təşəkkür edirəm. Elə təyyarədə Sizin Azərbaycana və Bakıya sonuncu səfərinizi xatırlayırdım. Siz həm Cəbrayılda, həm də Zəngilanda tatar icması ilə birlikdə Sabantuy bayramında iştirak edirdiniz. Hədiyyəyə görə də sağ olun. Biz onu elə Sizin olduğunuz həmin bölgələrə - Zəngilana, Cəbrayıla göndərəcəyik, orada onlara çox ehtiyac var. Bu mükafata görə Sizə bir daha təşəkkürümü bildirirəm.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

# mövqeyini möhkəmləndirir

## Prezident İlham Əliyevin Kazanda Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti ilə görüşü olub



**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Milorad Dodik Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş etdi.

Milorad Dodik Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. O, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırdı.

"Siz suveren Azərbaycanın güclü Liderisiniz. Güclü Lider olmadan güclü dövlət də ola bilməz", - deyən Milorad Dodik Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurla inkişaf etməsini məmnunluqla qeyd etdi.

O, investisiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu deyərək, Azərbaycanın yol infrastruktur şirkətlərinin Balkan regionunda uğurlu layihələr həyata keçirdiyini qeyd etdi və Bosniya və Herseqovinanın da bunda maraqlı olduğunu vurğuladı.

Prezident İlham Əliyev həm işğal, həm də işğaldan sonrakı dövrlərdə Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Bosniya və Herseqovinaya səfərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev enerji, nəqliyyat infrastrukturu və investisiyalar sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

## Azərbaycan Prezidenti İlham Əliyev Kazanda Laosun Prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 23-də Kazanda Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Laos Prezidenti ölkəsi ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu vurğulayaraq iqtisadiyyat, ticarət, investisiya, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızın inkişafı üçün əlverişli perspektivlərin mövcudluğunu qeyd etdi.

Thonqlun Sisulit hələ 1981-ci ildə Bakıda olduğunu məmnunluqla xatırlayaraq, ötən dövr ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini vurğuladı. O, sovetlər dövründə çox sayda laoslu mütəxəssisin Azərbaycanda təhsil almasına görə təşəkkürünü bildirərək, bu gün də həmin şəxslərin Laosda nazir, nazir müavini və digər rəhbər vəzifələrdə fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini dedi.

Thonqlun Sisulit dövlətimizin başçısını Laosa səfərə dəvət etdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti dəvətə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadiyyat, ticarət, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün müvafiq işçi qrupunun yaradılması və mütəxəssislərdən ibarət hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın təhsil sahəsində Laosa bundan sonra da dəstək göstərməsi imkanlarına toxundu.

Görüşdə gələn il Azərbaycan ilə Laos arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı qeyd edildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Kazanda Yeni İnkişaf Bankının prezidenti ilə görüşü olub

**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Dilma Russeff Azərbaycanda COP29-un keçirilməsini xüsusi qeyd edərək, bu tədbirdə iştirak edəcəyini məmnunluqla vurğuladı. O, iqlim maliyyələşməsi mövzularının beynəlxalq maliyyə institutlarının diqqət mərkəzində olduğunu dedi və bu nöqteyi-nəzərdən Bakıda keçiriləcək COP29-un önəminə toxundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran əməkdaşlıq imkanları müzakirə edildi.

## Kazanda XVI BRICS Sammitinin keçirilməsi münasibətilə rəsmi ziyafət verilib

### Prezident İlham Əliyev tədbirdə iştirak edib





**Oktyabrın 23-də Kazanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından XVI BRICS Sammitinin keçirilməsi münasibətilə rəsmi ziyafət verilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzinə gəldi.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi salamladı.





# Nazirlər Kabinetində son günlər intensiv yağıntının törətdiyi fəsadların aradan qaldırılması və gələcəkdə qarşısının alınması ilə bağlı iclas keçirilib

**Oktyabrın 23-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə son günlər Bakıda və Abşeron yarımadasında normadan artıq yağıntı ilə müşahidə olunan qeyri-sabit hava şəraiti, intensiv yağıntının törətdiyi fəsadların araşdırılması və nəticələrinin aradan qaldırılması, gələcəkdə belə halların baş verməsinin qarşısının alınması ilə bağlı məsələlərə həsr olunmuş iclas keçirilib. İclasda aidiyyəti qurumların rəhbərləri iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov yağıntıların normadan artıq olması kimi obyektiv səbəblə yanaşı, subyektiv səbəblərin də mövcudluğunu vurğuladı, müvafiq infrastrukturun tam gücü ilə işləməməsinin bir sıra ciddi fəsadlar və itkilərlə nəticələndiyini bildirdi.

Hazırda ziyan dəymiş infrastrukturun fəaliyyətinin bərpası üçün zəruri tədbirlərin görüldüyü, vəziyyətin araşdırıldığı və nəticələrin aradan qaldırılmasından sonra yekun qərarların qəbul ediləcəyi diqqətə çatdırıldı.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, daxili işlər naziri Vilayət Eyvazov, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov, Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və başqaları yağıntının fəsadları, onların ilkin məlum olan səbəbləri və aradan qaldırılması ilə bağlı məruzələrlə çıxış etdilər.

İclasda ən təxirəsalınmaz texniki məsələlərin həlli, bütövlükdə Bakı şəhərinin infrastrukturuna dair məsələlər müzakirə edildi, müvafiq tapşırıqlar verildi.

Baş nazir hava şəraitinin törətdiyi fəsadların nəticələrinin aradan qaldırılmasının sürətləndirilməsinə, səbəblərinin tam araşdırılaraq təhlil edilməsinə, gələcəkdə bu cür hadisələr zamanı mümkün fəsadların qarşısının alınması üçün qısamüddətli və uzunmüddətli tədbirlərin görülməsinə, müvafiq infrastrukturun tam hazır vəziyyətə gətirilməsi üçün təxirəsalınmaz addımların atılmasına dair tapşırıqlar verdi.

Həyata keçiriləcək bütün tədbirlərin keyfiyyətlə və qısa zamanda başa çatdırılmasına aidiyyəti qurumların ciddi məsuliyyət daşıdığı diqqətə çatdırıldı.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 463 — QƏRAR — Bakı şəhəri, 23 oktyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 143-8 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Tibb Baş İdarəsi, Məhkəmə Ekspertizası Mərkəzi və Ədliyyə Akademiyası istisna olmaqla) xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 84 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 143-8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Tibb Baş İdarəsi, Məhkəmə Ekspertizası Mərkəzi və Ədliyyə Akademiyası istisna olmaqla) xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanla Braziliya arasında COP29-a hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub

**Oktyabrın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Kazan şəhərində keçirilən BRICS Sammiti çərçivəsində Braziliya Federativ Respublikasının xarici işlər naziri Mauro Vieira ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Braziliya arasında ikitərəfli, çoxtərəfli əməkdaşlıq istiqamətləri, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işlərindən irəli gələn məsələlər müzakirə olunub.

İki ölkə arasında mövcud siyasi dialoqun daha da inkişafı istiqamətində qarşılıqlı səfər və təmasların artırılmasının əhəmiyyəti qeyd edilib.

Ölkələrimiz arasında keçirilən siyasi məsləhətləşmələrin əməkdaşlıq imkanlarının müzakirəsi baxımından faydalı olduğu diqqətə çatdırılıb.

Azərbaycan ilə Braziliya arasında mövcud ticarət dövriyyəsinin əməkdaşlığın daha da dərinləşdirilməsi üzrə prioritetlərə uyğun olmadığı, bu xüsusda iqtisadi-ticari əlaqələrin inkişafı istiqamətində mövcud imkanlardan istifadə olunmasının vacibliyi qeyd edilib.

COP29 çərçivəsində aparılan danışıqlar prosesi, irəli sürülən sədrlik təşəbbüsləri və prioritetləri, habelə hazırlıq işlərinin vəziyyəti barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov COP sədrliklərinin Üçlüyü ("Troyka") formatında əməkdaşlığın prosesin davamlılığının təmin olunması istiqamətində əhəmiyyətini vurğulayıb. COP29 sədrliyimizin əsas prioritetlərindən biri olan iqlim dəyişikliyi ilə mübarizəyə maliyyə vəsaitlərinin cəlbi istiqamətində əhəmiyyətli tərəqqinin əldə olunmasına dair ümidvarlıq ifadə edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Qırğızıstanın Müdafiə nazirlikləri arasında 2025-ci il üçün hərbi əməkdaşlıq planı imzalanıb







**Qırğızıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov ilə görüşüb.**

Azərbaycanın Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Qırğız Respublikasının Müdafiə Nazirliyində təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Qırğız Respublikasının Müdafiə Nazirliyi arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı" imzalanıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Ankarada törədilmiş terror aktı ilə əlaqədar TBMM-in Sədrinə başsağlığı verib

**Milli Məclisin Sədri Sahibə Qafarova Ankarada törədilmiş terror aktı ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşa başsağlığı verib.**

AZƏRTAC xəbər verir ki, S.Qafarova TBMM sədrinə ünvanladığı məktubunda Türk Aviasiya və Kosmik Sənaye Şirkətində törədilmiş terror aktı nəticəsində insanların həlak olması xəbərindən sarsıldığını və terror aktını şiddətlə qınadığını bildirib.

Parlamentin Sədri həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adından və Milli Məclisin deputatları adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib.

# *Hikmət HACIYEV:* "Azərbaycanın iqlimlə bağlı rolu regional sülh səylərinin bir hissəsidir"

**"Neft hasil edən dövlətləri uyğun olmayan ev sahibi kimi qiymətləndirmək ikiüzlü oyundur. Gələn ay Azərbaycan COP29-a evsahibliyi edəcək və artıq 28-ci dəfədir ki, iqlim sammiti neft və qaz hasil edən ölkədə keçiriləcək".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniyanın "Financial Times" nəşrinə açıqlamasında söyləyib. Hikmət Hacıyev qeyd edib ki, İsveçrə istisna olmaqla, bu konfransa evsahibliyi edən ölkələrin hamısı hasilatla məşğuldur. İstisnasız olaraq, dünyanın bütün ölkələri qazıntı yanacağı istehlakçısıdır. Belə əsassız iddianın əvəzinə, bu ölkənin evsahibliyi etmək üçün hansı yolu keçdiyini, nəyə nail olmağı planlaşdırdığını və bunun səbəbini soruşmaq daha məntiqli olardı. Azərbaycan bu il iqlim konfransına evsahibliyi edəcəyini əsla gözləmirdi; biz 30 ildir ərazimizin az qala beşdəbirini işğal edən qonşu Ermənistan tərəfindən təklifimizə veto qoyulacağını gözləyirdik. Bununla belə, ötən ilin dekabrında gözlənilməz razılaşmaya əsasən, Ermənistan davam edən sülh danışıqlarının bir hissəsi kimi Azərbaycanın evsahibliyini dəstəkləməyə razılaşdı. Danışıqlar davam edir və mühüm irəliləyiş əldə olunub. Sərhəd delimitasiyası komissiyaları fəal işləyirlər. Ermənistan komissiyası 1990-cı ildə postsovet ölkələri arasında sərhədlərin suverenliyinə dair öhdəliyi təsbit edən Alma-Ata Bəyannaməsini bu yaxınlarda qəbul etdi. Çoxları COP-dan əvvəl rəsmi sülh sazişinin imzalanmasını istərdi, lakin danışıqlar otağında sazişi razılaşdıran iki tərəfin çox fərqli təklifləri var. Ermənistan konstitusiyasında hələ də Azərbaycana qarşı revanşist ərazi iddiası yer alır. Sülh sazişini yekunlaşdıra biləcəyimiz sürət daha çox Ermənistanın bu məsələni nə qədər tez həll edə biləcəyindən asılıdır. Bunu durğunluq adlandıran tənqidçilər özlərinə sual verməlidir ki, hələ də onlara qarşı ərazi iddiası irəli sürən keçmiş düşməni ilə sülh sazişi imzalaya bilərmi? Bununla belə, sazişin imzalanmasının COP-un başlayacağı vaxta qədər baş verib-verməyəcəyindən asılı olmayaraq, göstərilən səylər baxımından bu tədbir sülh konfransı olacaq.

Prezidentin köməkçisi vurğulayıb: "Builki COP-da qazıntı yanacaqlarından qlobal keçidi reallığa çevirmək üçün maliyyə məqsədinin - "Yeni Kollektiv Kəmiyyət Hədəfi"nin geniş təşviqinə diqqət yetiriləcək. Bundan əlavə, Azərbaycan neft və qaz hasil edən digər dövlətlərin və şirkətlərin sərmayə qoyacağını gözlədiyimiz iqlim fondu yaradıb. Azərbaycan neft və qaz istehsalçısı olan ölkənin bərpaolunan enerjiyə necə keçid edə biləcəyi örnəyini nümayiş etdirir. Biz təkcə regionun ən böyük bərpaolunan layihələrini həyata keçirmirik, həm də mədən yanacağından elektrik enerjisi ixracına keçid edirik. Azərbaycan Aİ ilə tərəfdaşlıq şəraitində Xəzər dənizinin külək enerjisini qitə ilə əlaqələndirmək üçün Qara dənizin dibi ilə elektrik kabeli çəkilməsi layihəsini inkişaf etdirir. Xarici enerji bazarlarını hərəkətə gətirən tələbata təsir edə bilməsək də, təklif tərəfini yenidən formalaşdırırıq. Azərbaycan COP-a evsahibliyi edir, çünki biz sülh yolu ilə gedirik. COP-da biz qazıntı yanacaqlarından bərpaolunan mənbələrə ədalətli keçidi maliyyələşdirmək üçün yeni fondların tərəfdarı olacağıq, bu dəyişikliyi artıq özümüzdə fəal surətdə davam etdiririk".

# Azərbaycanın müdafiə naziri Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qırğızıstana rəsmi səfəri davam edir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov ilə birgə Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.

Abidə önünə əklil qoyulub, 1916-cı ildə baş vermiş faciə qurbanlarının xatirələrinə ehtiram nümayiş olunub.



# Azərbaycan erməni təəssübkeşlərinə gözdağı verir

**Qərbdə mənzillənən antiazərbaycançı şəbəkə ölkəmizin yüksəlişinə kölgə salmaq üçün dəridən-qabıqdan çıxmaqdadır. Xüsusən respublikamız mühüm uğurlara imza atanda, yaxud beynəlxalq tədbirlərə evsahibliyi edəndə onlar tərəfindən Azərbaycana qarşı heç bir əndazəyə sığmayan, insan mənəviyyatından və siyasi etikadan uzaq münasibətin, daha dəqiq desək, riyakarlığın şahidi olmuşuq.**






### Məkrli Qərbin kürkünə birə düşüb

Bu mənada BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində antiazərbaycançı şəbəkənin ölkəmizə qarşı "fəallaşması" bizim üçün heç də təəccüblü deyil. Yenə köhnə ssenariləri, illər əvvəl yazılmış mətnləri tirajlamaqla məşğuldurlar. Amma görünən həm də odur ki, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi bu erməni təəssübkeşlərinin kürkünə birə salıb və eyni mərkəzdən aldıqları təlimatlarla respublikamıza qara yaxmağa çalışırlar.

Ümumiyyətlə, elə bir həftə yoxdur ki, erməni təəssübünü çəkən dövlətlər və təşkilatlar tərəfindən Azərbaycana qarşı hansısa ittiham səslənməsin və yaxud ölkəmiz üçün adi kağız qədər əhəmiyyəti olmayan sənəd qəbul edilməsin. Sanki bunların işi-gücü yalnız Azərbaycanın uğurlarına kölgə salmaqdan, ölkəmizə böhtan və şər atmaqdan ibarətdir.



Elə təkcə oktyabr ayında Litvanın xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycana qarşı əsassız və qərəzli fikirlər söyləməsi, Niderland parlamentinin nümayəndələr palatasının Azərbaycan əleyhinə iki qətnamə qəbul etməsi, Niderlandın xarici işlər naziri Kaspar Veldkampın çıxışı zamanı bu qərəzli qətnamələrə dəstək ifadə etməsi, Avropa Parlamentində müzakirələr zamanı iş yerləri və sosial hüquqlar üzrə Avropa komissarı Nikolas Şmitin Azərbaycan əleyhinə qəbuledilməz və tamamilə qərəzli bəyanat səsləndirməsi, Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baronun "France Inter" kanalına müsahibəsi zamanı "Azərbaycanın Ermənistana münasibətdə beynəlxalq hüququ pozduğu"nu bildirməsi bunu təsdiqləyir.

### Mənəviyyatsızlığın göstəricisi

Bütün bunlar o təşkilatlar və dövlətlərdir ki, Azərbaycan torpaqları işğal altında olan zaman bir dəfə də ədalətli olmayıblar. Heç vaxt Azərbaycan torpaqlarının işğaldan azad edildiyini dilə gətirməyiblər, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi barədə düşünmək belə istəməyiblər. Hər zaman demokratiya və insan hüquqlarından dəm vursalar da, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yüz minlərlə soydaşımızın yaşamaq və mülkiyyət hüquqlarının pozulmasına laqeyd münasibət göstəriblər.

Bu baxımdan Vətən müharibəsində torpaqlarını işğaldan azad edən, ötən ilin sentyabrında Qarabağda erməni separatizminə son qoyan Azərbaycan həm də sözügedən erməni təəssübkeşlərinə, Qərbdə mənzillənən antiazərbaycançı şəbəkəyə qalib gəldi, onların riyakarcasına müdafiəsində dayandıqları işğal siyasətini, ikili standartları darmadağın etdi. İndi bu bədnam qaragüruh Azərbaycanın zəfəri ilə barışa bilmir, ölkəmizi öz milli haqqını bərpa etməkdə günahlandırır.

Ermənistanın Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamasına, Fransanın müstəmləkəçilik siyasətinə, bəzi Avropa ölkələrində insan haqları sahəsindəki problemlərə, islamofobiyaya heç vaxt münasibət bildirməyən, onlara göz yuman siyasi dairələrin Azərbaycana böhtan atması yalnız mənəviyyatsızlığın göstəricisidir. Onların nə deməsinin, nə qəbul etməsinin isə qalib Azərbaycan üçün zərrə qədər əhəmiyyəti yoxdur. Azərbaycan bundan sonra da öz yüksəlişi və uğurları ilə onlara gözdağı verəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# BMT-nin məlum dörd qətnaməsindən ikisində Qərbi azərbaycanlıların qayıdışı ilə bağlı əsaslar var

**"Beynəlxalq hüququn norma və prinsiplərində də əks olunduğu kimi, deportasiya insanlıq əleyhinə cinayətdir. Qərbi azərbaycanlılara qarşı ötən əsrdə bir neçə dəfə mərhələlərlə insanlıq əleyhinə cinayətlər törədilib. Sonuncu deportasiya məhz 1987-ci ilin sonlarına doğru başlamışdı. Həmin ilin sentyabr-oktyabr aylarından etibarən soydaşlarımıza qarşı sıxışdırılmalar, hücumlar, qarşıdurmalar başladı, Qafan əhalisinin evlərinə hücumlar edildi".**



Bu sözləri AZƏRTAC-ın sorğusuna cavab olaraq Qərbi Azərbaycan İcmasının sözçüsü - İcmanın İctimaiyyətlə Əlaqələr və Qərbi Azərbaycan Televiziyası şöbəsinin müdiri Ülviyyə Zülfiqar söyləyib.

O bildirib ki, 1987-ci il noyabrın əvvəlində Qafandan azərbaycanlıların ilk deportasiyası baş verdi və onlar şəraitsiz, insan daşımaq üçün nəzərdə tutulmayan qatarlara mindirilərək öz ata-baba yurdlarından çıxarıldılar. Ardınca 1991-ci ilədək Qərbi azərbaycanlıların sistemli şəkildə deportasiyası həyata keçirildi. Soydaşlarımız rayon-rayon, şəhər-şəhər, kənd-kənd ən acınacaqlı şəraitdə, soyuq havalarda cəmi bir neçə saat ərzində öz evlərini piyada tərk etməyə vadar olundular. Deportasiya nəticəsində Qərbi azərbaycanlıların maddi, eləcə də qeyri-maddi mədəni irsinə ağır zərbələr dəyib, onlar mal-mülklərini itirdilər. Bu gün də soydaşlarımızın çıxdıqları evlərin, kəndlərin çoxu dağıdılıb və tərk edilmiş vəziyyətdə qalmaqdadır. Torpaqlarımız işğaldan azad edilərkən gördüyümüz xarabalıqların, evlərin, yaşayış məntəqələrinin görüntüləri eynilə həmin kəndlərdədir", - deyə Ü.Zülfiqar vurğulayıb.

O əlavə edib ki, soydaşlarımızın yaşadıqları məntəqələrin adları dəyişdirilib, toponimlərimiz başqa adlarla əvəz olunub. Qərbi azərbaycanlıların fundamental, baza insan hüquqları pozulub. Onlar öz vətənlərindən zorla çıxarılıblar. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin ikinci bəndinə görə, onların geri qayıdış hüququ var. Bundan başqa, BMT-nin də məlum dörd qətnaməsindən ikisində Qərbi azərbaycanlıların qayıdışı ilə bağlı əsaslar var. Belə ki, 1993-cü ildə qəbul edilmiş 853 və 874 saylı qətnamələrdə bölgədəki qaçqınların geri qayıtmasına şərait yaratmaq tələb olunur.

# Paşinyan Ermənistanı cəhənnəmə çevirir

## Ağır sosial-iqtisadi və siyasi vəziyyət əhalinin etirazlarını artırır

**Ermənistanda Nikol Paşinyanın hakimiyyəti ələ keçirməsindən təxminən 6 il ötməsinə baxmayaraq, baş nazir nə qədər çabalasa da, nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilmir.**



Xüsusilə, postmüharibə dövründə hökumət başçısının verdiyi vədlər söz olaraq qalır, cəmiyyətdə siyasi ab-havanı sabitləşdirmək, milli iqtisadiyyatı irəli aparmaq üçün hansısa təsirli tədbir görülmür. Paşinyan indiki halda boşboğazlıqdan o tərəfə keçmir, xalq isə davam edən siyasi kataklizmləri müşahidə etmək məcburiyyətində qalır.

Əhali altı ildir ki, baş nazirin yalanlarını eşitməkdən yorulub. Səriştəsiz Paşinyanın "fəaliyyəti"nin nəticəsidir ki, bu gün Ermənistan iqtisadiyyatı iflic olub, investisiya yatıran yoxdur, həyat hər gün daha bahalı olur, yoxsulların sayı artır, dövlət sektorunda maaşlar azaldılır.

"168.am" nəşri yazır ki, Paşinyan hakimiyyətə gəldikdən sonra yalnız müasir məmurların həyatı və gündəlik həyatı fərqli nizama keçib. Onlar nəinki varlanıblar, pul və bahalı mənzillərin, bizneslərin sahibi olublar, daha "adi paltar"la işə getməklə kifayətlənmirlər. Düşünürlər ki, yeni, bahalı, yüksəksəviyyəli olmalıdırlar. Vergi ödəyicilərinin hesabına milyonlarla, milyardlarla pul xərcləyirlər ki, xidməti maşınlarda gəzsinlər. Onların hansı xeyirxah əməllərinə görə belə səxavətlə mükafatlandırıldıqları isə bəlli deyil. Ölkəni cəhənnəmə, insanların həyatını kabusa çeviriblər. Həllini gözləyən minlərlə təcili və zəruri problemlərin olmasına baxmayaraq, özlərinə bahalı "padavatlar" alır, xərclərini artırırlar.

Qeyd edilib ki, hökumət 110 min dollara qədər onlarla bahalı avtomobil almaq üçün 1 milyard dramdan çox vəsait ayıra bilər. Belə görünür ki, xidməti avtomobillərin alınması bu ölkənin ən aktual problemidir. Başqa heç bir problemi yoxdur. Təhlükəsizlik, müdafiə, sosial və digər vacib məsələlərdənsə xidməti maşınlara üstünlük verirlər. Onları camaatın fikri maraqlandırmır, xalq nə düşünəcək, nə düşünməyəcək, bunun önəmi yoxdur. Əsas odur ki, onların rahatlığı yerində olsun.

Bu yaxınlarda 644 min dollar ödəməklə müxtəlif rütbəli dövlət orqanlarının məmurlarına xidmət etmək üçün 21 xidməti avtomobil alınıb. İctimai nəqliyyatın problemlərini həll etmək, xidmət keyfiyyətini yüksəltmək, avtobus parkını yeniləmək əvəzinə, xidməti avtomobil parkını təzələyirlər ki, məmurlar ictimai nəqliyyatla gedib onun bütün çətinliklərini görməsinlər, xüsusən səhər saatlarında zəhmət çəkməsinlər.

Vaxtilə İrəvana elektrik avtobusları gətirəcəyini vəd edən şəhər merinin müavini Tiqran Avinyan özünə və bələdiyyənin digər məmurlarına bahalı elektromobil alıb. Şəxsi xidməti maşını olmayanlar isə xüsusi xidməti avtobuslardan istifadə edirlər.

Beləliklə, Ermənistanda hökumətdən narazılıqlar hər keçən gün artır. Bildirilir ki, sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılması ümidverici deyil. Vurğulanır ki, ölkədə qanunlara uyğun tədbirlər görülmür. Problemlərin həlli yalnız vətəndaşların ölkəni tərk etməsindədir. Ermənistan iqtisadiyyatının yaxşılaşması reallaşmayan arzudur. Hökumətin maaşların və pensiyaların artırılması ilə bağlı verdiyi vəd yalandır. Ölkəni idarə edənlər əhalinin gəlirlərini artırmaq istəmirlər. Ermənistan hökuməti erməni xalqını səfalətə məhkum edir.

Bütün bunlar xalqın böyük narazılığına yol açır və bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın şəkildə göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ZƏFƏR gündəliyi
## 24 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "İşğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik"

**Oktyabrın 24-də cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.**



Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən istiqamətlərində döyüş fəaliyyətlərini davam etdiriblər.

### Düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb və vacib yüksəkliklər azad edilib

Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulub. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılıb. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilib. Əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülüb, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb və vacib yüksəkliklər azad edilib.

### Tərtər, Bərdə, Goranboy və Naftalan atəşə tutulub



Tərtər və Bərdə rayonlarının ərazilərindəki yaşayış məntəqələrimiz düşmən tərəfindən atəşə tutulub. Xeyli sayda yaşayış evinə ciddi ziyan dəyib.

Düşmən Goranboy və Naftalan istiqamətindəki ərazilərimizi atəşə tutur.

### Qubadlı istiqamətində düşmənin döyüş təyyarəsi məhv edilib

Gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

### Düşmənin 3 tankı, 2 sığınacağı və bölüyün 4 dayaq məntəqəsi məhv edilib

Saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edib.

Azərbaycan HHQ düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməyə davam edib.

### İlham ƏLİYEV: "Biz bu gün dayanmağa hazırıq..."

Prezident İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verib. Jurnalistin ilk sualından məqsədi bəlli olub. Fransalı müxbirin "Nəyə görə siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?" sualına cavabında Prezident deyib ki, Azərbaycan Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməyib, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçib: "Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olub".

Prezident üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üç hərbi təxribat törədildiyini söyləyərək işğalçının əsl məqsədini açıqlayıb və qeyd edib ki, Azərbaycan onlara yalnız adekvat cavab verib:



"Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik".

Müharibənin hansı şərtlərlə dayandırılmasına gəlincə isə İlham Əliyev deyib: "Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan - Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik".

### Ermənistanın növbəti təxribat cəhdi



Azərbaycan Ordusunun bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atıb. Belə ki, Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini gizli atəşə tutub.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

### Ağdərədə düşmənin PUA-sı məhv edilib

Saat 15:25 radələrində Ağdərə rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirib.

Azərbaycan hərbi komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək, onların xəsarət almaması üçün hərbi obyekt və infrastrukturdan uzaq durmasını tövsiyə edib.

Eyni zamanda Azərbaycanın hərbi komandanlığı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə də müraciət edərək, silahı yerə qoymağı və təslim olmağı təklif edib.

### Erməni hərbçilər əsir götürülüb



Günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd göstərib.

Bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər olub.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Gəncə şəhər prokuroru kollektivə təqdim edilib

**Xəbər verildiyi kimi, baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən, Rauf Gözəlov Gəncə şəhər prokuroru vəzifəsinə təyin edilib.**



Dünən baş prokurorun birinci müavini Elçin Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, həmçinin Gəncə şəhər prokurorluğunun əməkdaşlarının iştirakı ilə şəhər prokuroru vəzifəsinə təyin olunmuş Rauf Gözəlov kollektivə təqdim edilib.

Baş prokurorluqdan verilən xəbərə görə, tədbirdə çıxış edən Elçin Məmmədov ölkə Prezidentinin rəhbərliyi ilə aparılan ardıcıl hüquq islahatlarının prokurorluq orqanlarında uğurla davam etdirildiyini qeyd edərək, Gəncə şəhər prokurorluğunun rəhbərliyində aparılan kadr dəyişikliyinin qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsini, nöqsan və çatışmazlıqların aradan qaldırılmasını təmin edəcəyinə əmin olduğunu bildirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək, şəhər prokurorluğunun digər hüquq-mühafizə orqanları və aidiyyəti dövlət qurumları ilə birgə dövlət və dövlətçiliyin qorunması naminə koordinasiyalı fəaliyyətinin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Müşavirədə çıxış edən Gəncə şəhər prokuroru Rauf Gözəlov prokurorluq orqanlarının inkişafına göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirərək, rəhbərlik etdiyi kollektivin yüksək etimadı doğruldacağını, qarşıya qoyulan vəzifələrin dönmədən icrasına nail olunması üçün səylə çalışacaqlarını, vətəndaşların qəbuluna və müraciətlərinə həssaslıqla yanaşılmaqla məmnuniyyətin əldə olunması naminə səfərbər olacaqlarını qeyd edib.

Həmçinin baş prokurorun digər müvafiq əmrləri ilə Lənkəran rayon prokuroru təyin edilmiş Azad Qarayev və Qazax rayon prokuroru təyin edilmiş Rövşən Əliyev də bu gün kollektivə təqdim olunublar.

# ADY-nin "Dayanıqlılıq hesabatı"nın təqdimatı olub

**Bu gün "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) "Gələcək üçün dayanıqlı nəqliyyat" mövzusunda keçirilən tədbirdə "Ətraf mühit, sosial və idarəçilik sahəsində dayanıqlı nailiyyətlərinə dair" hesabat təqdim edilib.**



AZƏRTAC xəbər verir ki, tədbirin əsas mövzusu Azərbaycanda dayanıqlı nəqliyyatın, xüsusilə dəmir yollarının yaşıl innovasiyalar və qabaqcıl rəqəmsal həllərin tətbiqi ilə dekarbonizasiya hədəflərinə çatmaq üçün görülən işlər, bu istiqamətdə atılacaq addımlar olub.

Tədbirdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov rəqəmsal innovasiya sahəsində beynəlxalq əməkdaşlıq və dayanıqlı nəqliyyatın inkişafı üçün Azərbaycanın strateji baxışının əsas məqamlarını diqqətə çatdırıb.

COP29-un baş icraçı direktoru Elnur Soltanov və Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov öz çıxışlarında qlobal iqlim məqsədləri və dekarbonizasiya hədəflərinin yerinə yetirilməsində nəqliyyatın önəmi, bu sahədə əsas qlobal təcrübələr və 2030-cu ilədək Milli Prioritetlər, həmçinin Azərbaycanın "yaşıl innovasiya" sektorunda artan rolu haqqında iştirakçılara ətraflı məlumat veriblər.

Tədbirdə çıxış edən ADY sədri Rövşən Rüstəmov dayanıqlı nəqliyyatın qurulmasında dəmir yollarının roluna toxunaraq bildirib ki, dəmir yolu dayanıqlığının birinci və ən mühüm aspekti emissiyaların azaldılması və enerji səmərəliliyidir. Dəmir yolu nəqliyyatı qlobal karbon qazı emissiyasının sadəcə 1 faizini təşkil edir və buna görə də digər nəqliyyat növləri ilə müqayisədə daha effektivdir.

ADY tərəfindən bu istiqamətdə görülən işlər, əldə edilmiş nəticələr və gələcək planlar barədə danışan R.Rüstəmov bildirib ki, Azərbaycanda ümumi enerji istehlakının 1,12 faizi dəmir yolu nəqliyyatının payına düşür və bu sahədə istilik effekti yaradan qazların emissiyası 0,5 faizdən az təşkil edir.

"Məqsədimiz karbon emissiyalarından tam azad, yəni karbon neytral dəmir yolu nəqliyyat sistemini qurmaqdır. 2023-cü ildə sərnişinlərin 100 faizinin, yüklərin isə 80 faizinin daşınması elektrik enerjisi hesabına həyata keçirilib", - deyə o bildirib.

Daha sonra tədbirdə iştirak edən Asiya İnkişaf Bankının nəqliyyat direktoru Ceyms Leder çıxışı zamanı qlobal miqyasda dəmir yolu sistemlərinin dekarbonizasiyası istiqamətində görülən təşəbbüslərdən danışıb, ADY-də onun reallaşdırılmasının gətirəcəyi faydaları qeyd edib.

Çıxışların ardınca ADY-nin ilk "Dayanıqlılıq hesabatı"nın təqdimatı baş tutub.

Daha sonra ADY sədri Rövşən Rüstəmov və Asiya İnkişaf Bankının nəqliyyat direktoru Ceyms Lederin iştirakı ilə iki qurum arasında dəmir yollarında dekarbonizasiya sahəsində əməkdaşlığa dair missiya sənədi imzalanıb.

# Astanada Xəzər Dənizi Məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun 9-cu iclası olub

**Oktyabrın 22-23-də Astana şəhərində Xəzər Dənizi Məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun (YSİQ) doqquzuncu iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, danışıqlarda Azərbaycan Respublikasının (rəhbər - S.Şərifov), İran İslam Respublikasının (rəhbər - Ə.Cahangiri), Qazaxıstan Respublikasının (rəhbər - Z.Amanjolova), Rusiya Federasiyasının (rəhbər - M.Petrakov) və Türkmənistanın (rəhbər - M.Atacanov) nümayəndə heyətləri iştirak ediblər.

İclasa Qazaxıstan nümayəndə heyətinin rəhbəri Z.Amanjolova sədrlik edib.

Tərəflər Xəzər dənizində düz çıxış xətlərinin çəkilməsi metodikasının müzakirəsini davam etdiriblər.

İclas çərçivəsində tərəflər Xəzər dənizində əməkdaşlığın icmalını həyata keçirib, Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Türkmənistanda növbəti görüşünə hazırlıq məsələlərini, habelə beştərəfli sənəd layihələri üzrə danışıqlar prosesinin gedişatını müzakirə ediblər.

Nümayəndə heyətləri görüşün yüksək səviyyədə təşkilinə görə Qazaxıstan Respublikasına minnətdarlıqlarını bildiriblər. YSİQ-nin növbəti iclası diplomatik kanallarla razılaşdırılacaq tarixdə Türkmənistanda keçiriləcək.

# *Zhiqun ZHU:* "Azərbaycan Çinin Avropa ilə artan ticarətində mühüm həlqədir"

**Azərbaycan ilə Çin arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığın kifayət qədər böyük potensialı var. Rəsmi Bakı Pekini təkcə dost ölkə kimi deyil, həm də texnoloji tərəqqinin mənbəyi kimi qəbul edir. Eyni zamanda ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün daha geniş imkanlar var. Azərbaycan Çinə özünün milli prioritetlərindən biri olan rəqəmsal və "yaşıl keçid"də tərəfdaş kimi baxır. Bundan əlavə, hər iki ölkə birgə bərpaolunan enerji mənbələri və elektrik avtomobilləri üçün avadanlıq istehsal edə bilər. Bu amilləri nəzərə alan Prezident İlham Əliyev Çin ilə əməkdaşlığı Azərbaycanın prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.**

**AZƏRTAC çinli ekspert, ABŞ-nin Bucknell Universitetinin Siyasi Elmlər və Beynəlxalq Münasibətlər üzrə professoru Zhiqun Zhu ilə müsahibəni təqdim edir.**

*- Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlıq potensialını necə qiymətləndirirsiniz? İki ölkə arasında investisiya mühiti hansı mərhələdədir və Çinin Azərbaycana investisiyaları hansı səviyyədədir?*

- Çinin Azərbaycanla əməkdaşlığı iki ölkə arasında 1992-ci ildə diplomatik əlaqələr qurulandan bəri davamlı şəkildə inkişaf edir. Çin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub. Azərbaycanda bütün siyasi qüvvələr ümumilikdə Çinlə dostluq əməkdaşlığının gücləndirilməsinin tərəfdarıdır. İki tərəf arasında yüksəksəviyyəli təmaslar tez-tez baş tutur. Prezident Si Cinpin və Prezident İlham Əliyev 2024-cü ilin iyulunda Astanada Şanxay Əməkdaşlıq Təşkilatının sammiti zamanı görüşdülər və hər iki lider ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldildiyini elan etdilər.

Çin Xarici İşlər Nazirliyinin statistikasına görə, ikitərəfli ticarət 2022-ci ildə 1,38 milyard dollara çatıb, 2023-cü ildə isə 1,72 milyard dollara yüksəlib. Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2023-cü ildə Çin və Azərbaycan arasında ikitərəfli ticarət dövriyyəsi 3,1 milyard dollar təşkil edib. İki ölkə strateji tərəfdaşlığı həyata keçirdikcə ticarət və investisiyalar artmağa davam edəcək.

Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün mühüm həlqəsidir. Hazırda Azərbaycan Cənubi Qafqazda Çin malları üçün ən böyük bazardır və daha çox Çin sərmayəsini cəlb etmək üçün böyük potensiala malikdir. Ticarət və investisiya ilə yanaşı, təhsil, turizm, idman, texnologiya və media kimi digər sahələrdə də əməkdaşlıq inkişaf edir.

*- Üçüncü ölkələrdə Azərbaycan-Çin birgə layihələrinin həyata keçirilməsi üçün hansı imkanlar mövcuddur?*

- Hər iki ölkə ikitərəfli əməkdaşlıqla yanaşı, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) kimi çoxtərəfli forumlarda və Çinin "Bir kəmər, bir yol" təşəbbüsü kimi qlobal layihələrdə də əməkdaşlığa can atır. Azərbaycan yaxın gələcəkdə mümkün tamhüquqlu üzvlüklə ŞƏT-də hüquqi statusunu dialoq tərəfdaşından müşahidəçi statusuna yüksəltmək üçün müraciət edib. Azərbaycan BRICS-in inkişaf etməkdə olan iqtisadiyyatlar qrupuna qoşulmaqda maraqlı olduğunu bildirib. Çin həm ŞƏT, həm də BRICS-də əsas rol oynayır, ona görə də Azərbaycanın bu qruplarda iştirakı ikitərəfli əməkdaşlıq üçün yeni imkanlar açır.

Bundan əlavə, Türkiyə və Gürcüstan kimi hər iki tərəflə yaxşı münasibətləri olan üçüncü ölkələr vasitəsilə Çin-



Azərbaycan əməkdaşlığını genişləndirmək imkanları var.

*- "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsində Azərbaycanın rolunu necə qiymətləndirirsiniz?*

- Bu ilin iyulunda iki ölkə arasında strateji tərəfdaşlıq quruldu ki, bu da Çinin qlobal strategiyasında Azərbaycana verdiyi önəmi göstərir. Azərbaycan Cənubi Qafqazın və Avropanın qalan hissəsinə, eləcə də Yaxın Şərqə ötürücü rolunu oynayaraq Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün mühüm həlqəsinə çevrilib. Gələcək əməkdaşlığın perspektivləri ümidverici görünür.

*- Bu gün Çin beynəlxalq iqtisadi arenada güclü oyunçuya çevrilib. Bu necə oldu?*

- Deng Xiaoping-in "islahat və açıqlıq" siyasəti Çin iqtisadiyyatını liberallaşdırmağa və Çin xalqının sahibkarlığını azad etməyə kömək etdi. Çin iqtisadiyyatı 1980-1990-cı illərdə böyüməyə başladı. 2010-cu ildə dünyanın ikinci ən böyük iqtisadiyyatı olaraq Yaponiyanı əvəz etdi. O vaxtdan bəri Çin iqtisadiyyatı böyüməyə davam etdi. Son illərdə Çinin inkişafı yavaşlasa da, onun trayektoriyası güclü olaraq qalır. Çinin bütün dünyada investisiyaları var. Son illərdə Qərbin Çinə qarşı siyasi və texnoloji təzyiqlərinə baxmayaraq, Çin və bir çox Qərb ölkələri arasında ticarət artmaqda davam edir. Ticarət tərəfdaşlarını şaxələndirmək üçün Çin Mərkəzi Asiya, Cənubi Avropa, Yaxın Şərq, Cənub-Şərqi Asiya, Afrika və Latın Amerikası ölkələri də daxil olmaqla qlobal Cənubi ilə ticarəti genişləndirdi. Dünyada artan ticarəti və təsiri ilə Çin, şübhəsiz ki, müasir beynəlxalq siyasi iqtisadiyyatda mühüm qüvvəyə çevrilib.

*- Çindən Avropaya ən qısa yol Azərbaycandan keçir. Azərbaycan üzərindən yükdaşımaların artırılması perspektivlərini görürsünüzmü?*

- Mütləq. Azərbaycan Çinin Avropa ilə artan ticarətində mühüm həlqədir. İki ölkə nəqliyyat sahəsində əməkdaşlığı gücləndirmək üçün birgə işləyə bilər. Bu, təkcə özlərinə fayda verməyəcək, həm də Çin və Avropa arasında ticarət və digər mübadilələri xeyli asanlaşdıracaq. Məsələn, Azərbaycan coğrafi mövqeyinə görə Asiya ilə Avropa arasında əlaqə rolunu oynaya bilər. Ölkə Şərq-Qərb və Cənub-Şimal nəqliyyatını, o cümlədən Çin-Avropa ekspress qatarının stabil işləməsini təşviq edə bilər.

*- Çin bərpaolunan enerji sahəsində dünya liderlərindən biridir. Azərbaycan da öz növbəsində öz inkişafını bu istiqamətə yönəldib. Bu sahədə əməkdaşlıq müzakirə olunurmu?*

- Bu, "yaşıl iqtisadiyyat"ın inkişafı üçün qlobal tendensiyadır. Hazırda həm Çin, həm də Azərbaycan diqqəti bərpaolunan enerji və davamlı inkişafa yönəldir. Buna görə də bərpaolunan enerji iki ölkənin qarşılıqlı fayda üçün əməkdaşlığı genişləndirə biləcəyi yeni sahə olacaq.

*- Ölkələrimiz arasında turizm mübadiləsi perspektivlərini necə qiymətləndirirsiniz? Azərbaycanlı turistlər Çinlə sadələşdirilmiş viza rejiminə ümid edə bilərmi?*

- İki ölkə arasında turizm və mədəni mübadilənin genişləndirilməsi üçün böyük potensial var. Azərbaycan çox güman ki, ortasəviyyəli çinli səyahətçilər üçün yeni məkana çevriləcək. Azərbaycan öz təbii gözəlliklərini, zəngin sərvətlərini, mədəniyyətini və tarixini potensial çinli turistlərə daha fəal şəkildə təbliğ edə bilər. 20 iyul 2024-cü il tarixindən 20 iyul 2025-ci il tarixədək Çin vətəndaşları Azərbaycana ildə 3 dəfə vizasız daxil ola bilərlər və hər girişdə qalma müddəti 30 günə qədərdir. Hazırda Azərbaycan vətəndaşlarının Çinə səfəri üçün viza lazımdır. Ümid edirik ki, Çin azərbaycanlı turistlərin viza almasını asanlaşdıra bilər və tezliklə onlara vizasız statusdan istifadə etməyə icazə verə bilər. COVID-dən bəri Çin əcnəbilərin viza almasını asanlaşdırdı və onlarla ölkə üçün vizasız siyasət qəbul etdi. Gözlənilir ki, Çin və Azərbaycan hər iki tərəfdən səyahət edənlər üçün daha əlverişli siyasətlər elan edə bilər.

*- Bu gün Çin elektromobilləri Avropa bazarına daxil olur, bu da bir çox Avropa ölkələrində qısqanclığa səbəb olur. Avropa qadağa qoyarsa, Çin digər bazarları, o cümlədən Azərbaycanı hədəf almağı planlaşdırırmı?*

- Avropa Birliyi bu yaxınlarda Çindən gələn rəqabətlə mübarizə aparmaq üçün Çinin elektrik avtomobillərinə tariflər tətbiq etdi. Əminəm ki, Çin öz elektromobil bazarını digər regionlara və ölkələrə genişləndirməyə və şaxələndirməyə çalışacaq. Azərbaycan Çinin elektromobillərini istəsə, bu cür elektrik avtomobilləri üçün yaxşı bazar ola bilər. İki ölkə bu istiqamətdə əməkdaşlıq imkanlarını mütləq araşdıra bilər. Elektrikli nəqliyyat vasitələrinin birgə istehsalı və onların Avropa və digər bazarlarda satışı da bir seçim ola bilər.

# "Yer kürəsi uşaqların gözü ilə" beynəlxalq fotomüsabiqəsi keçirilir

**IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Yer kürəsi uşaqların gözü ilə" adlı beynəlxalq fotomüsabiqə elan edilib.**







İctimai Birliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fotomüsabiqə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunur.

Layihə dünyaşöhrətli fotoqraf, "Reza Visual Academy"nin təsisçisi Reza Deqatinin iştirakı ilə reallaşdırılır.

"Yer kürəsi uşaqların gözü ilə" təkcə fotomüsabiqə deyil, eyni zamanda gələcək nəslin ətraf mühitə dair maarifləndirmədə və təbliğatda fəaliyyət göstərməsinə çağırışdır. Müsabiqəyə dünyanın hər yerindən 18 yaşına qədər uşaq və yeniyetmələr təbiətin gözəllikləri, çirklənmə və iqlim dəyişikliyinin yaratdığı problemlər barədə fərqli baxışlarını fotolar vasitəsilə təqdim etməyə dəvət olunur.

"Mən təbiəti sevirəm, çirklənmədən qorxuram" devizi altında keçirilən müsabiqə gəncləri ətraf mühitə sevgilərini və planetimizin gələcəyi ilə bağlı narahatlıqlarını əks etdirən cəlbedici fotoşəkillər çəkməyə təşviq edir.

Qalib gələn fotoşəkillər COP29 çərçivəsində noyabrın 11-dən etibarən Bakıda Heydər Əliyev Mərkəzində sərgilənəcək.

Xatırladaq ki, bundan əvvəlki "Yer kürəsi uşaqların gözü ilə" beynəlxalq fotomüsabiqəsi gənc fotoqrafların bədii istedadlarını, ətraf mühitə dair məlumatlılığını nümayiş etdirərək qlobal diqqət toplayıb, fotoqrafiyanın maarifləndirmə və sənətin unikal və effektiv bir formada birləşdirici rolunu göstərib.

Müsabiqə gənclərə ətraf mühitin mühafizəsində mövqe tutmaq və fotoqrafiyanın universal dili ilə dəyişikliklərə ilham vermək məqsədi daşıyır.

Fotoqrafiyada təcrübə və bacarıq səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdən 18 yaşa qədər uşaq və yeniyetmələr müsabiqədə iştirak etmək üçün mövzuya uyğun gələn 1-dən 20-dək fotoşəkil (şəkillərin kontekstini və mövzu ilə əlaqəsini təsvir edən qısa izah qeyd etməklə) təqdim edə bilərlər.

Oktyabrın 31-i müraciət üçün son tarixdir.

Münsiflər heyəti fotoşəkilləri yaradıcılıq, mövzuya uyğunluq, düşüncə və emosiya oyatmaq bacarığı əsasında qiymətləndirəcək. Qaliblər qlobal səviyyədə tanınma fürsətindən əlavə, sənət nailiyyətlərinə görə SRL kameralar qazanacaqlar.

Təqdimatlar müsabiqənin rəsmi internet səhifəsi vasitəsilə onlayn verilə bilər.

# Bakıda COP29-la bağlı nəqliyyatın idarə olunması üzrə monitorinqlər davam edir

**COP29 konfransına hazırlıq prosesi çərçivəsində tədbir müddətində yol hərəkətinin fasiləsiz və təhlükəsiz şəkildə təşkili məqsədilə paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın idarə olunması üzrə monitorinqlər davam etdirilir.**

Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən məlumat verilib.

Belə ki, oktyabrın 26-dan 27-nə keçən gecə saat 02:30-dan 05:30-dək davam edəcək yol nəqliyyatının monitorinq tədbirləri bütövlükdə tədbirin planı və marşrutuna uyğun simulyasiya edilərək icra olunacaq. COP29 Azərbaycan Əməliyyat Şirkəti, Daxili İşlər Nazirliyi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən aparılacaq monitorinqə COP29-a aid avtomobil və avtobuslarla yanaşı, həmçinin təcili tibbi yardım maşınları, eləcə də yanğınsöndürmə maşınları cəlb ediləcək.

Qeyd edək ki, monitorinqlərin aparılması məqsədilə şəhərin bəzi küçələrində nəqliyyatın hərəkət istiqaməti dəyişdiriləcək. Bu barədə ətraflı məlumat veriləcək.

Bundan əlavə, 26 və 27 oktyabr tarixlərində əhaliyə narahatçılıq yaratmamaq məqsədilə yol hərəkətinə məhdudiyyətlər tətbiq edilmədən paytaxtın küçə və prospektlərində COP29-a məxsus avtobusların da monitorinqi olacaq.




# Energetika naziri Çində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişafında "yaşıl enerji" dəhlizlərinin rolundan danışıb






**Çinin Şandon əyalətinin Çindao şəhərində "Bir kəmər, bir yol" enerji nazirlərinin 3-cü konfransı keçirilir.**

AZƏRTAC xəbər verir ki, tədbir Çinin Milli Enerji Administrasiyasının təşkilatçılığı ilə "Enerjinin birgə gələcəyi üçün yeniliyin gətirilməsi" mövzusunda təşkil olunur.

Dünyanın təxminən 30 ölkəsindən müvafiq dövlət qurumlarının rəhbər şəxslərinin, enerji, o cümlədən "yaşıl enerji" şirkətlərinin nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycanın energetika naziri Pərviz Şahbazov da iştirak edir.

Açılış mərasimində çıxış edən Çin Milli Enerji Administrasiyasının rəhbəri Can Cienhua, Şandon əyalətinin qubernatoru Cou Naysian və başqaları enerji təhlükəsizliyi üzrə əməkdaşlıq, enerji bazarlarının inkişafı, "yaşıl enerji" sahəsində tətbiq olunan son texnoloji yeniliklər və "yaşıl enerji"nin təşviqi üçün maliyyə imkanlarının araşdırılması sahəsində birgə əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

Konfransın açılış mərasimində çıxış edən energetika naziri Pərviz Şahbazov "Bir kəmər, bir yol" layihəsini Avrasiyanın müasir geoiqtisadi landşaftını formalaşdıran müdrik bir təşəbbüs olduğunu vurğulayıb, Avropa ilə Asiya arasında tranzit mərkəzi kimi mövqeyi, nəqliyyat və enerji dəhlizləri vasitəsilə Azərbaycanın bu layihədə mühüm rolunu qeyd edib. Nazir çıxışı zamanı hazırda ölkəmizin Çindən Avropaya ən qısa yolu - Orta dəhlizi gücləndirən, "Bir kəmər, bir yol"a "yaşıl enerji" bağlantıları ilə töhfə verən strateji kursundan danışıb.

Bildirilib ki, Azərbaycan və Çin liderləri strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə qəbul etməklə münasibətləri tamamilə yeni səviyyəyə yüksəldiblər.

"Azərbaycan-Çin münasibətlərinin zirvəsi olan bəyannamə müasir İpək yolu qurşağında enerji tərəfdaşlığının inkişafı üçün geniş imkanlar açır. Bir-birini prioritet, etibarlı və strateji tərəfdaş hesab edən ölkələrimizin neft-qaz hasilatı, emalı, "yaşıl enerji" sahələrində əməkdaşlığını dərinləşdirən yol xəritəsi müəyyənləşdirir. "Yaşıl enerji" üzrə böyük imkanları və təcrübəni birləşdirən Azərbaycan-Çin tərəfdaşlığı "Bir kəmər, bir yol", davamlı inkişaf, qlobal iqlim və enerji çağırışlarına cavab vermək istiqamətlərində mühüm əhəmiyyət daşıyır", - deyə nazir vurğulayıb.

Həmçinin Çin şirkətlərinin Azərbaycanda "yaşıl enerji"nin 2027-ci ilədək olan birinci inkişaf mərhələsində stansiyaların "yaşıl texnologiya"larla təchizatı və günəş enerjisi güclərinin yaradılmasında iştirak etdikləri diqqətə çatdırılıb. Bu xüsusda, "Energy China" şirkəti ilə 2 qiqavat gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair anlaşma memorandumu çərçivəsində hazırda 160 meqavat gücündə iki günəş-elektrik stansiyasının tikintisi, 100 meqavat gücündə "Qobustan" GES layihəsi ilə bağlı keçirilən tenderdə Çin şirkətlərinin iştirakı, eləcə də "China Datang", TBEA və "PowerChina" şirkətləri ilə əməkdaşlıq planlarından bəhs edilib. Bu əməkdaşlığın bərpaolunan enerjinin 2030-cu ilə olan növbəti mərhələsi çərçivəsində Azərbaycanın lokomotivliyi ilə həyata keçirilən "yaşıl enerji" dəhlizləri aspektində xüsusilə əhəmiyyətli olduğu qeyd edilib.

Nazir deyib ki, "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Türkiyə-Avropa", həmçinin Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərini birləşdirən və Avropa-Xəzər enerji dəhlizi ilə əlaqələnən "Mərkəzi Asiya-Azərbaycan-Avropa" "yaşıl enerji" dəhlizləri, ümumilikdə təxminən 10 qiqavat enerjinin Asiya ilə Avropa arasında ötürülməsini təmin etmək perspektivlərinə malikdir: "Daha geniş inteqrasiya olunmuş regional elektrik enerjisi bazarlarının yaradılmasını dəstəkləyən bu dəhlizlər üzrə əməkdaşlıq Çinin "karbon neytrallığı" hədəfinə, Mərkəzi Asiya və Azərbaycandan "yaşıl enerji" idxal etməklə enerji təchizatını şaxələndirməsinə töhfə verə bilər. Dənizdə "yaşıl enerji" layihələri, elektrik şəbəkələrinin genişləndirilməsi, elektrik ötürücü xətlərin inşası, enerji saxlama sistemləri və bərpaolunan enerji texnologiyaları üzrə investisiya və inkişafyönümlü əməkdaşlıqla Çinin bu dəhlizlərdə geniş iştirak imkanları var", - deyə nazir əlavə edib.

Nazir həmçinin COP29 sədrliyinin enerji təşəbbüslərinə də toxunub. Çini, "Bir kəmər, bir yol" ölkələrini Qlobal İqlim Sammitində fəal iştiraka və Azərbaycanın təşəbbüslərinə qoşulmağa çağırıb.

Konfransda "Bir kəmər, bir yol "Yaşıl Enerji" Əməkdaşlıq Fəaliyyət Planı" qəbul olunub. Bundan başqa, "Bir kəmər, bir yol" enerji platformasına yeni ölkələr qəbul olunub, platformanın katibliyinin ofisi təsis edilib, "Bir kəmər, bir yol" "yaşıl enerji" əməkdaşlıq fəaliyyət planı açıqlanıb, mükafatlar təqdim olunub.

Konfrans işini bölmə iclaslarında davam etdirəcək.

Qeyd edək ki, "Bir kəmər, bir yol" enerji nazirlərinin ilk konfransı 2018-ci ildə Şanxayda keçirilib. Konfransda "Bir kəmər, bir yol"un Enerji Tərəfdaşlığının Qurulmasına dair Nazirlərin Birgə Bəyannaməsi qəbul olunub.



# Britaniya lordları ADA Universitetində "Azərbaycanın COP29-da strateji əhəmiyyəti" adlı konfransda çıxış ediblər

**Böyük Britaniyanın Lordlar Palatasının iki üzvü - uzun müddət Mühafizəkarlar Partiyasının icraçı direktoru vəzifəsini icra etmiş lord Darren Mott və 7 il İşçi Partiyasının Baş katibi vəzifəsində işləmiş lord İain McNicol ADA Universitetində təşkil edilmiş "Azərbaycanın COP29-da strateji əhəmiyyəti" adlı konfransda çıxış etmək üçün "Qarabağ" Futbol Klubunun prezidenti, iş adamı Tahir Gözəlin dəvəti ilə Bakıya səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edənlər arasında Tahir Gözəl, lord İain McNicol, lord Darren Mott və ODI (Dənizlər Ötəsi İnkişaf İnstitutu) Qlobal Risklər və Davamlılıq komandasının direktoru Rebecca Nadin yer alıblar. Konfrans müddətində Azərbaycanın COP29-da strateji əhəmiyyəti, beynəlxalq əməkdaşlığın inkişafındakı rolu müzakirə edilib, tələbələrin sualları cavablandırılıb.

Lord McNicol və lord Mott COP29-a evsahibliyi edən ölkəmizi ziyarətdən məmnun olduqlarını söyləyib, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə töhfələrinə görə minnətdarlıqlarını bildirdilər.

### Lord İain McNicol və lord Mott haqqında

Lord İain McNicol Lordlar Palatasının, həmkarlar ittifaqının üzvü və 2011-ci ildən 2018-ci ilə qədər İşçi Partiyasının baş katibi vəzifəsində çalışmış siyasətçidir. Bundan əvvəl o, GMB İttifaqının milli siyasi məmuru vəzifəsində çalışıb. İain İnvestisiya və Qənaət Alyansının (TISA) baş məsləhətçisi, "Rewired.Earth"da Məsləhət Şurasının sədri, Böyük Britaniyanın Hidrogen Siyasəti Komissiyasında komissarı və Astra Protokolunda strateji məsləhətçidir.

Lord Darren Mott Mühafizəkarlar Partiyasının onilliklər ərzində ən uğurlu seçki kampaniyası zamanı kampaniya direktoru olub və 2019-cu ilin tarixi nəticəsini təqdim edib. Bu uğurdan sonra o, partiyanın icraçı direktoru vəzifəsinə yüksəlib. O, səkkiz ümumi seçki kampaniyası üzərində işləyərək, altı baş nazirə xidmət edib. Karyerasına partiyada təcrübəçi kimi başlayan lord Mott uzun müddət icraçı direktor vəzifəsində fəaliyyət göstərib.

# *Rusiyalı professor:* "COP29-un Bakıda keçirilməsi Azərbaycanın nüfuzundan xəbər verir"

**"COP29-a evsahibliyinin Azərbaycana etibar edilməsi təsadüfi deyil. Bu, Azərbaycanın müasir dünyada elmi və siyasi nüfuzundan xəbər verir".**

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində agentliyimizə "Ekoloji sivilizasiyanın astanasında: "yaşıl enerji"yə keçid" adlı yeni kitabını hədiyyə edən Rusiya Prezident Akademiyasının Jurnalistika fakültəsinin professoru Nizami Məmmədov deyib. Görkəmli alimlər - akademik Yusif Məmmədəliyev və professor Turhan Veziroğlunun xatirəsinə həsr olunmuş nəşr Bakıda Azərbaycan, rus və ingilis dillərində buraxılıb və BMT-nin İqlim Dəyişmələri üzrə Konfransa (COP29) həsr olunub. Kitabın müəllifləri professor Nizami Məmmədov və Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Sevda Məmmədəliyevadır.



Kitabın yeniliyi onun inteqrativliyində - fəlsəfi, təbiətşünaslıq, texnoloji və siyasi məsələlərin üzvi birləşməsindədir. Müəlliflər bəşəriyyətin ekoloji cəhətdən təmiz inkişafa keçid yolunda olmasından çıxış edirlər. Enerjinin müasir cəmiyyətin əsasını təşkil etdiyini nəzərə alsaq, enerjidə yaşıl inqilab, şübhəsiz ki, müxtəlif sahələrdə innovasiyaların xarakterini müəyyən edəcəkdir.

Müəlliflərdən birinin dediyi kimi, kitabda müasir elmin məlumatlarına əsaslanaraq iqlim dəyişmələrində enerji istehsalının və generasiyasının rolu, bu mürəkkəb dinamik prosesdə təbii və texnogen amillərin əlaqəsi müəyyən edilir. İqlim dəyişmələrinin qlobal geofiziki, ekoloji və sosial-iqtisadi nəticələrinə diqqət yönəldilir. İqlim dəyişmələrinin idarə edilməsinin hazırkı səviyyəsi və bu sahədə beynəlxalq sazişlərin rolu qiymətləndirilir.

"Meşələrin qorunması, yaşıllıqların sahəsinin artırılması, Dünya okeanının çirklənməsinin qarşısının alınması kimi iqlim tənzimləmə mexanizmlərinin saxlanmasına zərurət əsaslandırılır. Bəşəriyyətin "yaşıl enerji"yə keçidinin iqlim səbəblərinə xüsusi diqqət yetirilir. Bu da belə hesab etməyə imkan verir ki, "yaşıl enerji"yə keçid təbii tarixi prosesdir və buna davamlı inkişaf və ekoloji sivilizasiyanın formalaşması nəzəriyyəsi kontekstində baxılmalıdır", - deyə professor qeyd edib.

Kitabda ölkənin bərpaolunan enerji mənbələri üzrə misli görünməmiş yüksək potensiala malik olması səbəbindən külək və günəş enerjisinin inkişafı üzrə Azərbaycan modelinin xüsusiyyətləri ətraflı şəkildə açıqlanır.

"Azərbaycan günəşli və eyni zamanda küləkli ölkədir. Bu, günəş və külək enerjisi çeviricilərini birləşdirən, əlavə enerji toplamaq üçün hidrogen hasil edən, bir-birini tamamlayan prinsip əsasında enerji kompleksinin yaradılması üçün unikal haldır", - deyə N.Məmmədov əlavə edib.

Nəşrdə Azərbaycan neft elmini dünyada təmsil edən akademik Yusif Məmmədəliyevin "yaşıl enerji"nin inkişafına verdiyi töhfə xüsusi qeyd edilib. Hələ 1930-cu illərdə alim tullantısız, ekoloji cəhətdən təmiz kimya istehsalının yaradılmasının zəruriliyini qeyd edib, ətraf mühitin çirklənməsinin, xüsusilə səmt neft qazının atmosferə atılmasının və onun yanmasının qarşısının alınmasının tərəfdarı olub. Kitabda Beynəlxalq Hidrogen Enerjisi Assosiasiyasının (IAHE) qurucusu, türkiyəli alim, professor Turhan Nejat Veziroğlunun hidrogen tədqiqatlarına xüsusi töhfəsi də qeyd olunur.

Kitabda vurğulanır ki, Azərbaycanda bərpaolunan enerji mənbələrinə əsaslanan enerjinin inkişafı təbii qaza və neftə qənaət etməyə, istixana qazlarının emissiyalarını azaltmağa imkan verəcək. Müəlliflər dövlətin enerji siyasətini dəyişdirən Azərbaycan rəhbərliyinin müdrikliyini yüksək qiymətləndiriblər.

"Bunu etmək asan deyildi, çünki ölkə tarixən neft və qaz ehtiyatlarının işlənməsinə yönəldilmişdi. İndi neft və qaz hasilatı iqtisadi cəhətdən mümkün hədlər daxilində qalacaq", - deyə Rusiya Prezident Akademiyasının Jurnalistika fakültəsinin professoru vurğulayıb.

# *Leyla HƏSƏNOVA:* "İqlim dəyişikliyi gender bərabərsizliyini daha da dərinləşdirir"

**COP29-un Azərbaycan üzrə gənclər iqlim çempionu Leyla Həsənova oktyabrın 22-də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə Cenevrədə keçirilən "Pekin+30" Regional Baxış Görüşü çərçivəsində təşkil olunan "Gender fərqinin aradan qaldırılması: Avropa İqtisadi Əməkdaşlıq (ECE) regionunda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün effektiv siyasətlər" mövzusunda sessiyada çıxış edib.**




AZƏRTAC xəbər verir ki, L.Həsənova çıxışında iqlim dəyişikliyinin mövcud gender bərabərsizliyini daha da dərinləşdirdiyini, xüsusilə qadınların və qızların fəaliyyətini, sağlamlığını və təhlükəsizliyini təhdid etdiyini vurğulayıb.

İqlim fəlakətləri nəticəsində yaşayış yerlərini tərk etmək məcburiyyətində qalan insanların 80 faizini qadınların və uşaqların təşkil etdiyini diqqətə çatdıran gənclər iqlim çempionu bildirib ki, buna baxmayaraq, qadınlar iqlim böhranlarına cavab verməkdə, qabaqcıl həll yollarının tapılmasında və iqlim məsələləri ilə bağlı təşəbbüslərdə ön sıralardadırlar. O, bu xüsusda dayanıqlı elektrik enerjisi istehsal etmək üçün yağış suyunun gücündən istifadə edilməsinə dair ixtiranın müəllifi, azərbaycanlı gənc Reyhan Camalovanın dünyada böyük rəğbət və maraqla qarşılanan fəaliyyətini iştirakçıların diqqətinə çatdırıb.

L.Həsənova iqlim fəaliyyəti ilə gender bərabərliyinin inkişaf etdirilməsində maliyyə mənbələrinə, layiqli işə və məlumatlara çıxış imkanlarının önəmini xüsusi vurğulayıb. Qeyd edib ki, iqlim maliyyəsi nadir hallarda yerlərdəki qadınlara, xüsusən də iqlim dəyişikliyi ilə bağlı ilk sıralarda çalışanlara çatır. Əsas məqsəd kimi gender bərabərliyinə həsr olunmuş iqlim maliyyəsi cəmi 2,4 faiz səviyyəsindədir.

"Biz qadınların və qızların iqlim liderləri və aktorları kimi mühüm rolunu gücləndirməliyik. Bütün hökumətlərin, maliyyə institutlarının, xeyriyyəçilik və digər maraqlı tərəflərin iqlim dəyişikliyindən ən çox təsirlənən bölgələrdə qadınlara və qızlara maliyyə axınını artırmağa ehtiyac var", - deyə L.Həsənova xüsusi vurğulayıb.

Həmçinin qeyd edilib ki, qlobal miqyasda biznesin böyüməsində gender fərqinin aradan qaldırılması ümumi daxili məhsula 2,3 trilyon dollar və 433 milyon iş yeri qazandıra bilər. Bu isə gender bərabərliyini və qadın hüquqlarını əsas götürən iqlim təşəbbüslərinə sərmayə qoymağın əhəmiyyətini və faydalılığını göstərir.

# İtaliya Senatında COP29-un əhəmiyyətindən danışılıb



**İtaliya Senatında Bakının noyabrda evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına hazırlıq prosesindən və konfransın əhəmiyyətindən söhbət açılıb.**

AZƏRTAC xəbər verir ki, "COP29 - İqlim problemlərinə qarşı birgə fəaliyyət" adlı konfrans İtaliya Senatında İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, senator Marko Skurrianın təşəbbüsü və ölkəmizin İtaliyadakı səfirliyinin təşkilatçılığı ilə keçirilib. Konfransda senator Marko Skurria, Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov, İtaliya Senatında Avropa İttifaqı siyasəti komissiyasının sədri, senator Ciuliomaria Terzi Di Sant'Aqata, İtaliyanın Ətraf Mühit və Enerji Təhlükəsizliyi Nazirliyinin Avropa və beynəlxalq əlaqələr və davamlı maliyyə üzrə baş direktoru Alessandro Qerri, COP29-un adaptasiya və itki və zərər üzrə aparıcı danışıqçısı Elvin Əşrəfzadə, İtaliya hökumətinin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi professor Françesko Korvaro iştirak ediblər.

Jurnalist Marita Lanqellanın moderatorluğu ilə keçirilən konfransda çıxış edənlər COP29-un əhəmiyyətindən danışıb, Qafqazda ilk dəfə Azərbaycanın belə bir mötəbər konfransa evsahibliyi etməsinin böyük məsuliyyət və şərəf olduğunu vurğulayıblar.

Senator Marko Skurria ölkəmizin COP29-a evsahibliyi etməsinin İtaliya ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə töhfə verəcəyini və Azərbaycanı daha yaxından tanımaq üçün əlavə imkan yaradacağını bildirib.

Səfir Rəşad Aslanov Azərbaycanın iqlim dəyişikliyi mübarizə istiqamətində gördüyü işlərdən danışıb, ölkəmizin bərpaolunan enerji mənbələri - külək və günəş enerjisi potensialından bəhs edib.

Senator Ciuliomaria Terzi Di Sant'Aqata İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın bəzi siyasi və iqtisadi aspektlərini vurğulayıb, bunun COP29-un formatındakı əhəmiyyətini qeyd edib.

Elvin Əşrəfzadə iqlim hadisələri ilə mübarizədə inklüziv yanaşmanın vacibliyini bildirib. O, COP29-un qlobal istiləşməni məhdudlaşdırmağa yönəlmiş 1,5 dərəcə hədəfinə və Paris İqlim Sazişinin hədəflərinə nail olmaqdakı əhəmiyyətini vurğulayıb.

Alessandro Qerri isə iqlim məsələlərində İtaliyanın mövqeyi barədə məlumat verib, Azərbaycanın COP29-a yanaşmasını yüksək qiymətləndirib, bunun İtaliya-Azərbaycan münasibətlərindəki əhəmiyyətini qeyd edib.

Professor Françesko Korvaro iqlim dəyişikliyi ilə bağlı müddəalardan, COP29-un imkanlarından və çağırışlardan söhbət açıb. O, danışıqları dəstəkləyən azsaylı ölkələrdən biri kimi ilk dəfə İtaliyanı seçdiyinə görə Azərbaycana təşəkkürünü bildirib və bu seçimin ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini deyib.




# COP29-a könüllü verənlər



## Adilə ƏLİYEVA: "Bu qlobal beynəlxalq konfransda 3 min könüllü fəaliyyət göstərəcək"

**Qarşıdan Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası gəlir. İllərdir Azərbaycanda formalaşan "Könüllülük məktəbi"nin iştirakçıları bu beynəlxalq tədbir zamanı da qonaqlara müxtəlif sahələrdə yardımçı olacaqlar.**

**Bu məqsədlə bir neçə ay əvvəl məxsusi olaraq COP29 Könüllülük Proqramı elan olunaraq müraciət edənlər arasında seçim aparılıb. COP29 könüllüləri, onların fəaliyyət istiqamətləri barədə suallarımızı COP29 Azərbaycan Əməliyyat Şirkətinin İşçi Qüvvəsi Departamentinin Könüllülərlə iş sektorunun rəhbəri Adilə Əliyevaya ünvanladıq.**



*- Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak üçün neçə könüllü qeydiyyatdan keçib və onlardan neçəsinin müraciəti müsbət qiymətləndirilib?*

- COP29 Könüllülük Proqramının qeydiyyat prosesinə 29 may tarixində start verilmişdi. Qürur hissi ilə qeyd etmək istərdim ki, 24 saat ərzində Azərbaycanda rekord qeydiyyat göstəricisinə nail olduq. Belə ki, bir gündə 9000 nəfər könüllülük üçün qeydiyyatdan keçdi. Ümumiyyətlə isə 16 mindən çox şəxs COP29 könüllüsü olmaq üçün qeydiyyatdan keçmişdi. Sözsüz ki, müraciətlərin sayının çox olması və konfransa olan maraq bizi çox sevindirir, lakin tədbirə ümumilikdə 3 min könüllünün cəlb ediləcəyi nəzərə alınaraq biz seçim prosesinə diqqətlə yanaşdıq.

Seçim bir neçə mərhələdən ibarət oldu. İlk mərhələdə qeydiyyat müraciətləri yoxlanıldı və nəticədə 10 min nəfər müsahibə mərhələsinə dəvət olundu. Müsahibə mərhələsindən uğurla keçən könüllülərin 68 faizi qadın, 32 faizi kişi olmaqla, təxminən 7 min nəfər ümumi təlimlər mərhələsinə keçmək imkanı əldə etdi. Təlimlər prosesi seçim mərhələsinin əsas elementlərindən hesab olunur. Bu mərhələ prosesin uğurla aparılması üçün çox vacibdir. Nəhayət, ümumi və rol təlimlərimizin yekununda ümumilikdə 3000 nəfər COP29 könüllüsü olaraq seçildi.

*- COP29 könüllüsü olmaq üçün qeydiyyatdan keçənlər əsasən hansı yaş aralığında idilər?*

- Tədbirə marağın böyük olması müraciətçilərin sayına təsirsiz ötüşməyib. Xüsusilə vurğulamaq istərdim ki, əvvəlki tədbirlərlə müqayisədə yuxarı yaşlı insanların da könüllülüyə marağının artması bizi sevindirir. Belə ki, könüllülər arasında ən gəncinin 16, ən yaşlısının isə 72 yaşında olması bu prosesin müxtəlif yaş kateqoriyasında olan şəxslər üçün cəlbedici olduğunu göstərir. COP29 könüllülər proqramının müraciətçiləri arasında üstünlüyü 18-25 yaş aralığında olanlar təşkil edir. Bu yaş qrupu ümumi müraciət edənlərin 84 faizini təşkil edir. Müraciətçilərin 11 faizi 16-18 yaş arası, 5 faizi 25 yaşdan yuxarı şəxslərdir.

*- Könüllülər seçilərkən daha çox hansı meyarlara diqqət edilib?*

- Ən məsuliyyətli və vacib mərhələ olan seçim prosesində müraciətçilərin çox olması seçim meyarlarına qarşı bizi daha həssas olmağa təşviq edib. Seçim prosesində müraciətçilərin əvvəlki könüllülük fəaliyyəti, özünü ifadəetmə bacarığı, komanda işi, tolerantlıq, dil bilikləri, problem həll etmə qabiliyyəti, stresin idarə olunması və liderlik xüsusiyyətləri kimi meyarlar əsas götürülməklə yanaşı, yalnız bizim komandamız tərəfindən tətbiq olunan könüllülərin psixotiplərinin müəyyənləşdirilməsi prosesi həyata keçirilib.







Sözsüz ki, tətbiq etdiyimiz alətlər COP29 tədbirinə ən yaxşı könüllülərin seçimi prosesini asanlaşdırmaqla bərabər, onların uyğun olduqları fəaliyyət sahələrini də öncədən müəyyən etmək üçün vacib idi.

*- COP29 könüllüləri hansı istiqamətlərdə və hansı müddətdə fəaliyyət göstərəcəklər?*

- Könüllülər tədbirin əsas işçi qüvvəsidir. Onlar qonaqların hava limanında avtobuslara mindirilməsi və hotellərə yerləşdirilməsindən, qonaqlara məkan daxilində dəstəyin göstərilməsi prosesinə qədər, demək olar ki, əməliyyatların bütün istiqamətlərində iştirak edəcəklər. Bundan əlavə, könüllülər təkcə qonaqlarımıza deyil, əməkdaşlarımıza dəstəyin göstərilməsi, media əməliyyatları və dəstək komandasının üzvləri olaraq BMT əməkdaşları ilə çiyin-çiyinə çalışaraq tədbirin ən yaxşı formada təşkilində yaxından iştirak edəcəklər.

COP29 konfransına qədər olan müddətdə keçirilən müxtəlif tədbirlərin təşkilində də könüllülərimiz fəal iştirak edərək, təşkilatçılıq prosesində komandamıza yaxından dəstək olublar. Oktyabrın 19-dan etibarən işə başlayan akkreditasiya və uniforma könüllüləri COP29 işçi heyətinin akkreditasiya və uniforma paylanması prosesində iştirak edirlər. Yaxın günlərdə digər könüllü komandalarımız da konfransla bağlı müxtəlif istiqamətlər üzrə işə cəlb olunacaqlar.

*- COP29 Könüllülük Proqramına xarici ölkələrdən müraciətlər olubmu? Olubsa, əsasən, hansı ölkələrdir? Ümumilikdə, neçə əcnəbi Bakıda könüllü kimi fəaliyyət göstərəcək?*

- COP29 konfransı ölkəmizlə yanaşı, dünya gənclərinə də maraqlıdır. Könüllülük Proqramına start verdiyimiz andan etibarən xaricdən könüllü olmaq istəyən gənclərdən də böyük sayda müraciətlər almağa başladıq. Xarici könüllülər üçün də müraciət imkanı yaratmışdıq və onlarla ayrılıqda müsahibə və təlimlər təşkil etdik. Ümumilikdə 80-dən çox əcnəbi vətəndaş COP29-un könüllüsü olaraq təşkilati işlərə qoşulacaq. Xarici könüllülərimiz, əsasən, Amerika Birləşmiş Ştatları, Türkiyə, Almaniya, Kolumbiya, Belarus, Cənubi Koreya, Çin, Gürcüstan, Hindistan, Türkmənistan, Pakistan, Nigeriya, Qırğızıstan və digər ölkələrin vətəndaşlarıdırlar.

*- Könüllüləri hər zaman düşündürən bir sual var: Bu fəaliyyət onlara gələcəkdə nə qazandıracaq? Könüllülüyün gələcək iş fəaliyyəti üçün hansı müsbət tərəfləri var?*

- Könüllülük gələcək iş həyatı üçün əvəzolunmaz təcrübədir. Bu fəaliyyət könüllülərə peşəkar bacarıqlarını inkişaf etdirmək, komanda işi və liderlik qabiliyyətlərini artırmaq, yeni insanlarla tanış olub şəbəkələşmək imkanı yaradır. Eyni zamanda, beynəlxalq tədbirlərdə iştirak etməklə fərqli mədəniyyətlər və perspektivlərlə tanış olmaq onların şəxsi və peşəkar inkişafına müsbət təsir göstərir.

Bu gün könüllülərin seçim prosesini həyata keçirən işçi qüvvəsi komandasında əməkdaşlarımızın böyük əksəriyyəti daha əvvəl keçirilmiş tədbirlərdə könüllü olmuş gənclərdir. Könüllülük gənclərimiz üçün möhtəşəm inkişaf platformasıdır və bu proqrama qoşulmaqla gənclərimiz istər nəzəri, istərsə də praktik olaraq vacib biliklər əldə edir, peşəkarlardan ibarət komandaların tərkibində işləmək imkanı qazanırlar. Sözsüz ki, əldə edilmiş biliklər gənclərimizin gələcək inkişafında vacib rol oynayacaq.

*- COP29 Azərbaycanda formalaşmış könüllülük fəaliyyətinə hansı yeniliklər gətirib və ya gətirəcək?*

- Komandamız gənclərin inkişafı və onların yetişdirilməsi prosesinə xüsusi diqqət yetirir. İndiyə qədər keçirilmiş COP konfransları tarixində ilk dəfə olaraq Azərbaycanda COP29 Akademiyası təşkil edilib. COP29 Akademiyasında mentorluq, peşəkar inkişaf və iş imkanları təklif edən genişmiqyaslı layihə olmaqla, iştirakçıların iqlim dəyişmələri, dayanıqlılıq sahəsində yeni biliklər əldə etməsi istiqamətində öyrənmə mədəniyyətinin təşviqi prosesi həyata keçirilib. Akademiyada iştirak üçün çoxsaylı müraciətlərin dəyərləndirilməsi nəticəsində 29 nəfər seçilərək COP29 Akademiyasının iştirakçısı olmaq imkanı əldə edib. İştirakçılar 2 ay müddəttində fərdi və peşəkar inkişaf təlimlərində iştirak etməklə yanaşı, COP29 Azərbaycan Əməliyyat Şirkətinin fərqli şöbələrinin iş prosesləri ilə də yaxından tanış olublar. Proqramın sonunda şöbələr tərəfindən seçilmiş gənclər həmin şöbələrin tərkibində uğurlu təcrübə keçib, iş imkanı əldə ediblər. Hazırda 29 nəfər COP29 Akademiyası məzunu COP29 Azərbaycan Əməliyyat Şirkətinin əməkdaşı kimi fəaliyyət göstərir.

***Müsahibəni apardı: Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# COP29-da müyəssərlik və inklüzivlik öhdəlikləri hansı formada təmin olunacaq?

**"İnklüzivlik bərabər cəmiyyət, bərabər imkanlar və bərabər hüquqlar deməkdir. Prezident İlham Əliyevin tapşırığı ilə son illər ölkəmizdə inklüzivliklə bağlı bir çox işlər görülüb. Özüm 20 ildir ki, təkərli oturacaqdan istifadə edirəm. Azərbaycan COP29 tədbirində də inklüzivlik siyasətini ortaya qoyur. Tədbirə yüksək səviyyədə hazırlığı göstərən əlamətlərdən biri də məhz elə müyəssərlik və inklüzivlik kimi incə məqamlara toxunulmasıdır. Tədbirin müxtəlif dərəcədə əlilliyi olan şəxslərə əlçatanlığını təmin etmək üçün hazırlıq prosesində işlər görülməkdədir. Yeddi min nəfərə əlilliyin dərki, etiket, danışıq və davranış qaydaları ilə bağlı treninqlər, həmçinin spesifik təlimlər keçirilib. Əminəm ki, əldə edilən biliklər sonrakı dövrlərdə də öz müsbət nəticəsini verəcək".**



Bu fikirləri AZƏRTAC-a müsahibəsində COP29 Əməliyyat Şirkətinin nümayəndəsi, SƏTƏM Departamentinin müyəssərlik sektorunun müdiri Kamal Məmmədov deyib.

Sektor müdirinin sözlərinə görə, Bakı Stadionunda tədbirin keçiriləcəyi 49 hektar ərazidə hər bir detalda müyəssərlik nəzərə alınıb. "İclas otaqları, yeməkxanalar və ticarət məntəqələrində müyəssərlik təmin ediləcək. Müyəssərlik üzrə dəstək masası qeydiyyat sahəsinin yaxınlığında yerləşəcək və orada məkanın müyəssərlik üçün müvafiq təlimat kitabçası olacaq. Plenar iclaslar zamanı, eləcə də müraciət əsasında digər görüşlərdə iştirakçılar üçün yerində və canlı yayım formatında işarət dili üzrə şifahi tərcümə xidmətləri təmin olunacaq. Təkərli oturacaqlara texniki qulluq xidməti və enerjidoldurma məntəqələri təşkil ediləcək. Beynəlxalq standartlara uyğun panduslar quraşdırılacaq. Brayl əlifbası ilə hazırlanmış taktil xəritələr və məlumat kitabçaları, müyəssər zolaq və lövhələr mövcud olacaq.

COP29 işçi heyəti, könüllülər, podratçılar arasında müxtəlif dərəcədə əlilliyi olan insanlar var. Təkərli oturacaqlara texniki qulluq xidməti məhz elə əlilliyi olan insanlar tərəfindən aparılacaq. Bakı Stadionunda qapı yanındakı lövhələrə brayl əlifbası ilə stikerləri Azərbaycanda yaşayan görmə məhdudiyyətli insanlar çap ediblər. Yaxın zamanlarda görmə məhdudiyyətli şəxslərin iştirakı ilə Mavi Zonada 427, Yaşıl Zonada isə 99 ədəd stikerin yapışdırılması prosesi olacaq", - deyə COP29 Əməliyyat Şirkətinin nümayəndəsi əlavə edib.

K.Məmmədov bildirib ki, qeyri-vizual məhdudiyyətli, yəni eşitmə və nitq məhdudiyyətli, autizm və digər neyroinkişafa malik olan şəxslər üçün xüsusi beynəlxalq simvol olan günəbaxan lentləri hazırlanıb. Onlar cəmiyyət içində olanda, məkana gələndə, hava limanında həmin lentlərdən istifadə edə bilərlər. Təlim keçənlər günəbaxan lentinin mənasını bildiklərindən həmin şəxslərə uyğun davranış sərgiləyəcəklər.

Bundan əlavə, nəqliyyat - metro, avtobus və taksilər də həmin qəbildən olan şəxslər üçün əlçatan olacaq. Həmçinin COP29 veb-saytında xüsusi funksiya var ki, görmə məhdudiyyətli insanlar onun vasitəsilə xəbərləri səsli formada dinləyə biləcəklər.

# Gəncədə keçirilən ağacəkmə aksiyasında 4 min Eldar şamı əkilib




**Bakı-Qazax magistral avtomobil yolunun Gəncə şəhərindən keçən hissəsində genişmiqyaslı ağacəkmə aksiyası təşkil olunub.**

Qədim İpək yolu üzərində keçirilən aksiyanın məqsədi ictimaiyyətin diqqətini yaşıllıqların bərpasına və artırılmasına yönəltmək, ətraf mühitin mühafizəsinə və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir. Aksiya iştirakçıları bölgənin torpaq-iqlim şəraitinə uyğun olan 4 min Eldar şamı əkiblər.

Qeyd edək ki, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunan ağacəkmə aksiyası üç



gün davam edib. Bu müddət ərzində sözügedən ərazidə, ümumilikdə, 5450 ağac əkilib. Növbəti 5 gün ərzində isə əlavə olaraq 5000-dək ağacın əkilməsi nəzərdə tutulur.

# Şəmkirdə 14 min ağac əkiləcək

**Şəmkir rayonunda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində silsilə tədbirlər davam etdirilir.**

Dünən keçirilən ağacəkmə aksiyasında əvvəlcədən müəyyən edilmiş ərazilərə torpaq-iqlim şəraitinə uyğun 4000 ədəd şam, çinar və göyrüş ağacı əkilib, ağacların suvarılması təmin edilib. Həmçinin əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb.

Qeyd edək ki, Şəmkirdə "Yaşıl dünya naminə həmrəy-



lik ili" çərçivəsində ötən həftə keçirilən aksiyada 3500 ağac əkilmişdi. Aksiyanın oktyabr ayının sonunadək davam etdirilməsi nəzərdə tutulur. Rayon ərazisində yaşıllıqların daha da artırılması məqsədilə mövsüm ərzində, ümumilikdə, 14 min şam, görüş və çinar ağaclarının əkilməsi planlaşdırılır.

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Qarabağ və Şərqi Zəngəzur kreativ sənaye zonasına çevrilir

**Əgər desək ki, işğaldan azad olunmuş ərazilərimizdə sənaye müəssisələrinin sayı günbəgün artır, burada heç bir mübaliğə olmaz. Bax elə bu günlər Əsgəranda sement zavodu fəaliyyətə başlayıb.**

Xocalı rayonunun Əsgəran qəsəbəsində "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin həmtəsisçisi olduğu "Shahbulag Mining" MMC daha bir layihənin icrasına başlayıb. İllik istehsal gücü 60 min ton olan "AzCement" sement zavodunda 70 nəfərin işlə təmin edilməsi nəzərdə tutulub. Zavod işğaldan azad edilmiş ərazilərin infrastrukturunun və sənaye potensialının gücləndirilməsinə, regionun iqtisadi inkişafına töhfə verəcək.

Əslində, bu ərazilərdə açılan hər bir müəssisə həmin məqsədi daşıyır - bölgəni gücləndirmək, yurda dönən insanların məşğulluğunu həll etmək, ölkə iqtisadiyyatına inteqrasiya olunmaq. Bu istiqamətdə müəyyən edilən hədəflərə çatmaq üçün ardıcıl iş aparılır. Məsələn, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərimizdə 142 sənaye müəssisəsi fəaliyyət göstərib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, 2022-ci illə müqayisədə 25,7 faiz çoxdur. Bu müəssisələrin 82,4 faizi və ya 117-si Qarabağ iqtisadi rayonunun, 17,6 faizi və ya 25-i isə Şərqi Zəngəzur iqtisadi rayonunun payına düşüb. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 25,8 faiz və 25 faiz çoxdur.

İl ərzində işğaldan azad edilmiş ərazilərdə sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı 13,1 faiz artaraq 1218-ə çatıb. Qarabağ iqtisadi rayonunda fərdi sahibkarların sayı 11,6 faiz artaraq 1070-ə, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 25,4 faiz artaraq 148-ə çatıb.

Ötən il işğaldan azad edilmiş ərazilərdə istehsal olunmuş sənaye məhsulunun dəyəri 298 milyard 679 milyon manat, o cümlədən Qarabağ iqtisadi rayonunda 274 milyard 772 milyon manat, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 23 milyard 908 milyon manat olub.

Bu bölgələrdə sənayenin inkişaf potensialı böyükdür. Mütəxəssislərin fikrincə, resurslar burada sənayenin bir çox sahələrinin, o cümlədən dağ-mədən, metallurgiya, emal sənayesi, ərzaq istehsalı, elektrik enerjisi istehsalı, meşə sənayesi və kreativ sənayenin inkişafına imkan verir. Ötən 4 il ərzində istifadəyə verilən enerji və turizm obyektləri, istehsal müəssisələri də bunu göstərir. Prezident İlham Əliyev sözügedən bölgələrə hər səfərində fəaliyyətə başlayan müəssisələrin açılışını edir və daha neçəsinin təməlini qoyur.

Dövlət başçısının son bir neçə aydakı səfərlərini xatırlamaq kifayətdir. Sentyabrın 19-da Ağdam Sənaye Parkında "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun açılışı oldu. Burada Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı həyata keçirilir. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə ümumilikdə 120 nəfər işlə təmin ediləcək. İşçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütünü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizinin yerli, 35 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

"Eel Electric" MMC elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodudur. "Eel Electric" tərəfindən Avropa və Türkiyənin qabaqcıl texnologiyasının tətbiqi ilə 35 kV, 10 kV və 0,4 kV-luq elektrik paylayıcı qurğularının istehsalı üzrə müəssisə fəaliyyət göstərəcək.

"Eel Electric" MMC 2022-ci ilin noyabr ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İnvestisiya dəyəri 3 milyon manatdan çox olan müəssisədə 70 nəfər işlə təmin ediləcək.

Ağdam Sənaye Parkının rezidentlərindən biri də "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodudur. "Rail Trans Service" MMC 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. "Rail Trans Service" MMC sənaye parkının 1,6 hektar ərazisində "Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı" layihəsini həyata keçirəcək.

İnvestisiya dəyəri 8,92 milyon manat olan müəssisədə 60 nəfər işlə təmin ediləcək.

"Mister Decor" MMC isə divar kağızları istehsalı zavodudur. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. İllik gücü 2,1 milyon ədəd rulon divar kağızının istehsalı olan müəssisədə 76 nəfərin məşğulluq problemi həll olunacaq.

Alman texnologiyasından istifadə edilən müəssisədə istehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə ixracı da planlaşdırılır.

"Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodu da fəaliyyətə başlayıb. Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalıdır. Ümumi investisiya dəyəri 3,9 milyon manat olan müəssisədə 90 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Dövlət başçısı eyni zamanda parkın rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin dam örtükləri istehsalı zavodunun açılışında iştirak edib. Bu layihə çərçivəsində dam və fasad örtülməsi üçün nəzərdə tutulmuş profilli təbəqələrin, metalkirəmit plitələrin, sendviç panellərin və müxtəlif dam örtüyü aksessuarlarının istehsalı təşkil ediləcək.

"Prof-Dam" MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İki hektar ərazidə yaradılan müəssisədə məhsul buraxılışı İtaliya, Finlandiya, Türkiyə, Rusiya və Çin istehsalı olan soyuq metalşəkilləmə texnologiyalarının tətbiqi ilə həyata keçiriləcək.

İnvestisiya dəyəri 8,5 milyon manat olan müəssisədə 40-dək iş yeri yaradılacaq.

Xatırladaq ki, Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdədir. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. İndiyədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında isə hələlik bir müəssisə fəaliyyət göstərir. Burada kənd təsərrüfatı texnikalarına, yük maşınlarına texniki servis xidməti göstərilir. Dövlət başçısı bu ayın əvvəlində Cəbrayıl rayonuna səfəri çərçivəsində sənaye parkında bir sıra müəssisələrin təməlini qoydu.

Deməli, Qarabağda və Şərqi Zəngəzurda sənaye müəəssisələrinin şəbəkəsi getdikcə genişlənir. Bu müəssisələrdə çalışanlar doğma kəndinə, şəhərinə dönən keçmiş məcburi köçkünlərdir. Böyük qayıdış uğurla davam edir. Qayıdanların hər biri üçün də iş olacaq!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Subsea7" şirkəti ilə yeni layihələr üzrə əməkdaşlıq imkanları müzakirə edilib

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "Subsea7" şirkətinin baş icraçı direktoru Con Evans ilə görüşüb.**



Görüşdə "Subsea7" şirkəti tərəfindən ölkəmizdə uğurla həyata keçirilən layihələr barədə məlumat verilib və yeni layihələr üzrə potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Söhbət zamanı "Subsea7" şirkətinə məxsus yeni texnologiyaların Xəzər dənizin Azərbaycan sektorunda tətbiqinin yeni layihələrə qata biləcəyi dəyərlər barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Əlilliyi olan şəxslər 76,3 min reabilitasiya vasitəsilə təmin olunublar

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-sentyabr aylarında əlilliyi olan şəxsləri 76,3 min ədəd reabilitasiya vasitəsilə təmin edib.**

Onlardan 4,6 mini təkərli oturacaq (o cümlədən 153-ü mühərrikli təkərli oturacaq), 1,7 mini aşağı və yuxarı ətraf protezi, 1,8 mini eşitmə aparatı, 2 mini qoltuqaltı və dirsəkaltı ağac, 131-i korset olub. Həmin şəxslərə 2,7 min cüt protez ayaqqabı, 4,7 min cüt ortopedik ayaqqabı və s. reabilitasiya vasitələri də təqdim olunub.

Bu ilin 9 ayında ümumilikdə 9,6 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitəsilə təmin edilib.

## "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının pərləri Bakıya gətirilib

**Energetika Nazirliyindən bildirilib ki, "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa edilən "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının pərləri Bakıya gətirilib.**

"Xızı-Abşeron" Külək-Elektrik stansiyası 240 meqavatt gücündə olacaq və Azərbaycanın ilk, Qafqaz bölgəsinin isə ən böyük külək enerji stansiyası olacaq. Stansiya illik 893 geqavatt-saat təmiz enerji istehsal edəcək və karbon emissiyalarını illik 400 000 tondan çox azaldacaq. 25 il müddətinə "tikinti-sahiblik-istismar" (BOO - Build - Own - Operate) prinsipi ilə fəaliyyət göstərəcək və "ACWA Power" tərəfindən idarə ediləcək.

Stansiya Abşeron rayonunun Zona-1 və Xızı rayonunun Xızı-3 ərazilərində inşa ediləcək və 37 külək turbini optimal külək yığımını nəzərə alaraq yerləşdiriləcək.

## BOKT-ların maliyyə sistemində payı 1,6 faizdir

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin direktor müavini Ataxan Həsənov Bakıda keçirilən "Dayanıqlı mikromaliyyə üçün innovativ həllər" konfransında deyib.




O bildirib ki, buna baxmayaraq maliyyə sektorları arasında ən sürətli inkişaf templərindən biri məhz bu sektorda müşahidə olunur.

"Bu ilin doqquz ayında BOKT-ın aktivləri 30 faiz artaraq 980 milyon manata çatıb. Qeyd edilən dövrdə bank sektorunun aktivlərində 3,4 faiz, sığorta sektorunun aktivlərində isə 8 faiz artım qeydə alınıb. Azərbaycanda BOKT-ların xidmət şəbəkəsi 308 filialdan ibarətdir. Aktivləri artıq 50 milyard manatı ötən bank sektorunda isə bu rəqəm 480 filialdır", - deyə direktor müavini əlavə edib.

## DOST RİM Niderlandda yerləşən "DevOps Agile" Bacarıqları Assosiasiyasının mükafatına layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) "DevOps Agile" Bacarıqları Assosiasiyasının (DASA) təşkil etdiyi beynəlxalq müsabiqədə də uğur qazanıb.**

Böyük Britaniya, Niderland, İrlandiya, Türkiyə və digər ölkələrdən 100-dən çox qurumun, o cümlədən "EY", "Global Knowledge CGI", "Vodafone", "HCLTech", "Synergy" kimi dünyaca məşhur qurumların iştirak etdiyi müsabiqədə bu il ölkəmizi DOST RİM təmsil edib.

Mərkəzin əməliyyatların avtomatlaşdırılması, departamentlərarası iş prinsiplərində elektron keçidlər, "DevOps" təcrübələrinin tətbiqi və bunun sosial xidmətlərin elektronlaşdırılmasında müsbət təsiri və s. ilə bağlı müsabiqəyə təqdim etdiyi işi beynəlxalq ekspertlər yüksək qiymətləndiriblər.

Beləliklə, DOST RİM müsabiqədə "DevOps Business Value" kateqoriyası üzrə mükafata layiq görülüb və müsabiqədə seçilmiş qurumların siyahısı müsabiqənin rəsmi saytında yer alıb: https://www.dasa.org/community/dasa-awards/

Niderlandda yerləşən DASA nüfuzlu "DevOps" və "Agile" sənaye qurumu olaraq, yüksək performanslı rəqəmsal təşkilata çevrilmək istəyən müəssisələrlə tərəfdaşlıq funksiyası daşıyır. Qurum 2017-ci ildən "DevOps" mütəxəssisləri üçün universal bacarıqların inkişafı və təşviqi işində fərqlənən qurumların tanıdılması məqsədilə "DASA" mükafatını təsis edib.

Qeyd edək ki, DOST RİM bu il 22 beynəlxalq mükafatla təltif edilib.

## Mikro sahibkarlara verilən kreditlərin həcmində 33 faiz artım qeydə alınıb

**"Son 1 il 8 ay ərzində mikro sahibkarlara verilən kreditlərin həcmində 33 faiz artım olub. Orta sahibkarlığa verilən kreditlər təxminən 27 faiz, kiçik sahibkarlığa verilən kreditlər isə 12 faiz azalıb".**

Bunu KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov "Dayanıqlı Mikromaliyyə üçün İnnovativ Həllər" mövzusunda keçirilən Azərbaycan Mikromaliyyə Konfransında çıxışı zamanı bildirib.

"Bu statistika onu göstərir ki, bank və Bank Olmayan Kredit Təşkilatları KOB-ların maliyyələşməsinə və regionların kreditləşməsinə dair müəyyən addımlar atmalıdır. Regionlarda fəaliyyətin genişləndirilməsi üçün yeni filialların yaradılmasına ehtiyac var. Son 2 il yarımda ölkəmizin kredit portfeli 10 milyard manat artıb. Bu artımlar həm biznes, həm istehlak, həm də ipoteka kreditlərinə aid olsa da, bunlar arasında artım sürəti biznes kreditlərində digər ikisindən daha az olub. Belə ki, sözügedən dövr ərzində ipoteka kreditləri 66 faiz, istehlak kreditləri 77 faiz artdığı halda, biznes kreditləri 44 faiz artıb. Kredit portfelinin 77 faizi Bakının payına düşür", - deyə KOBİA sədri əlavə edib.

# Kapital qoyuluşunda əsas istiqamət qeyri-neft sektoru olaraq qalır

**Dəfələrlə qeyd etdiyimiz kimi, beynəlxalq aləmdə yaranmış gərgin vəziyyət üzündən qlobal səviyyədə kapital qoyuluşu son illər kəskin azalıb. Belə halda iqtisadi inkişaf dinamikasını qorumaq, sahibkarlara dəstək vermək məqsədilə büdcədən maliyyələşmə önə çıxır. Son bir neçə ilin statistik rəqəmlərinə diqqət yetirdikdə bunu aydın görmək mümkündür.**



Azərbaycan dünyada neft-qaz ölkəsi kimi tanınır. Məlumdur ki, bu sahəyə qoyulan investisiya qısa zamanda böyük məbləğdə gəlir gətirir. O üzdən ötən əsrin 90-cı illərində Azərbaycanın neft sənayesinə iri həcmdə xarici kapital qoyuluşu həyata keçirilmişdir. "Əsrin müqaviləsi" adlanan bu saziş ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin qorunub saxlanmasında müstəsna rol oynamışdır. Hazırda Azərbaycanın 73 milyard dollardan çox valyuta ehtiyatının olması da, əsasən, həmin tarixi müqavilənin sayəsindədir. Prezident İlham Əliyevin dediyi kimi, iqtisadi gücümüz bu gün heç bir xarici dövlət və beynəlxalq maliyyə qurumundan vəsait almadan işğaldan azad olunan əraziləri bərpa etmək imkanı verir.

İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumata görə, Azərbaycanda mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manatdan çox investisiyanın yatırılması və 8400-dən artıq yeni iş yerlərinin yaradılması nəzərdə tutulur. Məlumatda bildirilir ki, sənaye zonaları üzrə 153 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və indiyədək sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb, 10 min 500-dən artıq daimi iş yeri yaradılıb.

Dünyada baş verən mürəkkəb və riskli proseslərə baxmayaraq, yaradılan münbit investisiya mühiti sayəsində ölkəmizin iqtisadiyyatına xarici investisiya qoyuluşu davam edir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, təkcə cari ilin yanvar-sentyabr aylarında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, İsveçrə. Türkiyə, Yaponiya, Rusiya, Norveç, İran, Hindistan, BƏƏ, Qırğızıstan və Fransa sərmayədarları Azərbaycana 2 milyard 45,2 milyon manat investisiya yatırmışlar. Ümumiyyətlə, sözügedən dövrdə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 12 milyard 711,1 milyon manat investisiya yönəldilmişdir. Yatırılan ümumi sərmayənin 6 milyard 302 milyon manatı məhsul istehsalı, 4 milyard 743,8 milyon manatı xidmət sahələrinin, 1 milyard 665,3 milyon manatı yaşayış evlərinin payına düşmüşdür. Kapital qoyuluşunda dövlətin payı 57,6, qeyri-dövlət sektorunun payı 42,4 faiz olmuşdur. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 83,2 faizinə bərabər olmuşdur. Bununla yanaşı, əsas kapitala yönəldilmiş investisiyalarda müəssisə və təşkilatların vəsaitləri 6 milyard 715,1 milyon, büdcə vəsaitləri 4 milyard 948,6 milyon, digər maliyyə mənbələri isə 1 milyard 47,4 milyon manat təşkil etmişdir. Hesabat dövründə neft-qaz sektorunun inkişafı üçün 4 milyard 83,3 milyon, qeyri-neft-qaz sektoruna 8 milyard 627 milyon manat vəsait xərclənmişdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

24 oktyabr 2024-cü il

# Udilər 2500 illik tarixlərinə Qarabağda qovuşdular

## Böyük Zəfər Qafqaz albanlarının dini varislərini də öz müqəddəs ocaqlarına qaytardı

### ◆ Biz qayıtdıq, Vətən!

**"Əsrlər boyu udilər erməni zərbəsinə tuş gəliblər. Xalqımın dini, irsi, mədəniyyəti onlar tərəfindən mənimsənilib, nümayəndələri erməniləşdirilərək bizdən uzaqlaşdırılıb, özgələşdirilib.**
**Udi xalqı olaraq bizim yaşadıqlarımız dəhşətdir. Sərhəd tanımayan erməni saxtakarlığının, fitnəsinin nəticəsidir ki, Qafqaz Albaniyasının qədim dini varisləri olan udilərin sayı indi dünyada cəmi 10 mindən bir az çoxdur.**
**Erməni məkrinin qurbanlarına çevrilən xalqımın üzvlərinin varlıqlarını bu günə qədər sürdürə bilmələrinin yeganə səbəbi isə məhz minilliklər boyu Azərbaycanda var olan multikultural mühit, tolerantlıq şəraitidir..."**







### Orada bir məbəd var...

O, 2020-ci ildə Kəlbəcərin işğaldan azad edilməsinin üzərindən cəmi bir həftə keçdikdən sonra - dekabrın 4-də həmin yurda üz tutmuş, təsviregəlməz xoşbəxtlik, qürur hissi ilə əcdadlarının tikib-qurduğu Allah evinə qovuşacağının xoş həyəcanına bürünmüşdü. Murovun sərt döngəli, qarlı, buzlu dolanbac yolları ilə müqəddəs məbədə yaxınlaşdıqca ürəyi quş kimi çırpınmış, bir anlıq gerçək həyatda, yoxsa xəyal aləmində olduğunu kəsdirə bilməmişdi...

Ancaq bir qərinəlik ayrılığın ardından Xudavəng monastr kompleksinə daxil olub orada şam yandırması, şəhidlərimizin ruhuna dualar oxuması, Tanrıya şükür etməsi ilə bütün bunların həqiqət olduğunu bir daha anlamış, istər-istəməz xoşbəxtlikdən gözləri dolmuşdu. Müqəddəs məbədin onilliklər boyu erməni vəhşiliyinə tuş gələrək dəyişdirilməsini, saxtalaşdırılmasını görməsi isə onun üçün həyatındakı ən böyük əzab olmuşdu.

"Baxdım ki, ermənilər məbədi "bərpa" etmək adı ilə memarlıq üslubunu dəyişiblər, tamamilə saxtalaşdırıblar. Monastrın girişində sağ və solda təzə daşlar qoyub üzərinə erməni xaçı yapışdırıblar. Amma dünya tarixində belə bir fakt yoxdur ki, kilsənin girişində hər daşın üzərində xaç olsun. Buna vandalizmdən başqa ad vermək olmaz".

"Biz qayıtdıq, Vətən!" rubrikasının qonağı Alban-Udi dini icmasının rəhbəri "Şöhrət" ordenli Robert Mobilidir. Mənsub olduğu udi xalqının erməni fitnəsi sayəsində necə ağır, sınaqlarla dolu həyat yolu keçməsindən, Vətən müharibəsi sayəsində öz dini irslərinə qovuşmalarından danışan Robert Mobili hazırda da niyyətləri Qarabağ və Şərqi Zəngəzurdakı Qafqaz Alban irsinə yiyələnmək olan dünya erməniliyinə qarşı apardıqları haqlı mübarizədən söz açdı.

### Doğma vətənin səni viranə halda qarşılayırdı...

- Dünyanın çox yerlərini gəzmişəm, amma 30 ildən sonra ilk dəfə Xudavəngə ziyarətə getdiyim gün duyduğum hissləri heç zaman yaşamamışdım. Həmin hisslərimin sözlə ifadəsi indi qeyri-mümkündür... 2020-ci ilin dekabrında Murov yolu ilə düz 8 saat ərzində Xudavəng monastır kompleksinə gedib çatdıq. O zaman hələ yol düzəlməmişdi, hərbi avtomobillə tankların açdığı yolla gedirdik. Çox təhlükəliydi. Yolboyu ermənilərin Kəlbəcərdə törətdiyi vəhşiliklərə baxıb dəhşətə gəlirdim. Düzdür, Kəlbəcər möhtərəm Prezidentimiz İlham Əliyevin diplomatik siyasəti nəticəsində döyüşsüz azad edilmişdi, amma düşmən buranı tərk edərkən öz barbar əməllərindən qalmamışdı. Onlar gedəndə meşələri məhv etmişdilər, evləri yandırmışdılar, yenicə kəsilmiş ağaclardan



"yaş" süzülürdü, sanki ağlayırdılar, yandırılmış evlər hələ də tüstüləyirdilər... Bircə dağlar yerində qalmışdı, düşmən qalan hər şeyi, təbiəti, yaşayış evlərini, infrastrukturu, tarixi, dini, mədəni irsi məhv etmişdi. Bu ürəkağrıdan mənzərələri görmək dəhşətli idi. Düşünün ki, doğma vətənin səni viranə halda qarşılayırdı. O qədər gözəl yeri nə günə qoymuşdular... Çox təsirləndim...

Xudavəngə çatanda kilsədəki rus keşişi yanımıza gəldi və mən ona hörmətimin ifadəsi olaraq müqəddəs kitabımız "Bibliya"nı hədiyyə etdim. Sonra gördüm bir erməni keşiş də gəlir (libasından tanıdım) müqəddəs kitabdan birini də ona verdim. Rus kilsəsinin keşişi kitabı götürəndə öpdü, amma erməni keşiş dərhal onu açdı (kitabın girişində bizim dildə "İvel girk", yəni "Müqəddəs kitab" yazılıb) və tipik erməni ləhcəsiylə rusca dedi ki, "ara, "girk" eto armyanskiy slova". Mən isə dərhal onun cavabını verdim ki, "girk" nə erməni, nə udi, nə alban sözüdür, bu təmiz yunan sözüdür". Yəni onlar burada da erməni xislətlərini göstərdilər...

Həmin vaxt Xudavəngdə iki erməni keşişi var idi, əvvəlcə onlar bizi içəri qoymaq istəmirdilər, təxribat yaratmağa çalışırdılar. Biz isə - icmamızın sədr müavini Rafik Danakari və mən onlara öz etirazımızı bildirərək dedik ki: "Buna heç bir haqqınız yoxdur. Biz öz evimizə gəlmişik..."

İlk dəfə Xudavəngdə kiçik kilsəyə getdik, ibadət etdik, şükür elədik, qəhrəman qazilərimizə cansağlığı dilədik, şəhidlərimizin ruhuna dualar oxuduq. Çünki məhz bu vətənpərvər Azərbaycan oğullarının sayəsində biz torpaqlarımıza dönə bildik, müqəddəs ocaqlarımızı ziyarət etdik. Xudavəng "Allahın evi" deməkdir. Biz hər zaman dualar edirdik ki, bu Alban kilsəsinin də qapısı açıq olsun. Amma o adamlar üçün ki, hansı ki onu tikənlərin dini davamçılarıdır, onu qoruyanlardır... Yəni Azərbaycan xalqı üçün, onu saxtalaşdıran, məhv edən ermənilər üçün yox...

### Udilər də ana vətən uğrunda döyüşdülər

- İxtisasca geoloq olduğum üçün işğaldan əvvəl də dəfələrlə Qarabağ və Şərqi Zəngəzurda olmuşdum. Ərazidə işləyərkən bu yerlərdə olan Alban məbədləri diqqətimi çəkirdi, onlarla maraqlanırdım. Ata nənəmin (Təzəgül) babası David Mobili böyük din xadimi olub. Onun soyadının davam etməsi üçün



familiyasını bizim nəslə veriblər. Anamın anasının nəsli isə tanınmış alban tayfalarından olan Məlikovlardandır. Onlar hamısı Nicdə doğulub böyüyüblər. Özüm şəcərəmizdən 5-6 nəsli tanıyıram.

Hələ sovet dönəmindən - dinin qadağan olunduğu dövrdən bilirdim ki, bu kilsələr alban kilsələri olub. Nənəm Təzəgül kommunist olsa da, daxilən dindar idi. Uşaq idim, görürdüm ki, o, evdə olanda xaç çevirir, dualar edir. Ümumiyyətlə, həmin zaman çox adamlar "gizli xristian", "gizli müsəlman" idilər. Eyni zamanda nənə-babalarımız bizə udilərin necə erməniləşdirildiyini, necə ağır zərbə altında qaldığını danışırdılar. Biz xalqımızın başına gətirilən bütün bu faciəvi hadisələri bilirdik. Təsəvvür edin ki, bu insanlar doğma kilsələrindən məcburən imtina edib öz ibadətlərini evdə aparıblar...

Ermənilər bizim kilsələrimizi əlimizdən alıblar, insanlarımızı erməniləşdiriblər. Dəqiq bilirəm ki, Qarabağda 11 kənd erməniləşdirilmiş udilərdən ibarət idi. Suqovuşan, Çaylı, Tuğ bunlardan bir neçəsidir. 10-12 yaşım vardı, xatırlayıram ki, nənəmlə Çaylıya həmin erməniləşdirilmiş udi ailələrindən birinin evinə getmişdik. Evin xanımı udi dilində danışa bilirdi, kişi isə yox. O artıq erməniləşmişdi... Yəni öz gözümlə erməniləşmiş udiləri görmüşəm...

44 günlük müharibə həm də tarixi düşmənlərimizdən qisas aldığımız hadisə kimi bizim üçün böyük məna daşıyırdı. Belə bir fakt göstərim. Rəqəm nisbətinə əsasən deyirəm ki, Vətən müharibəsində döyüşlərdə iştirak edən udilərin də sayı çox olub. Çünki əgər Azərbaycanda yaşayan ümumilikdə 3500 udidən 55 nəfəri müharibəyə könüllü gedibsə, bu, ölkə miqyasında götürəndə ən yaxşı göstəricidir. Özü də azsaylı xalqın nümayəndəsi, həm də xristian olaraq... Bax bu göstərir ki, udilər Qafqaz Albaniyasının varisi olan Azərbaycanın doğma övladları olaraq ana vətənləri uğrunda işğalçı düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparıblar, qazi olublar. Udi döyüşçülərin hər biri dövlətimiz tərəfindən medallarla təltif olunub.

### Tarixin izi ilə...

Robert Mobili söhbət əsnasında udilərin qədim tarixi barədə də məlumat verdi.

- Udilər Qafqaz Albaniyasının ən qədim tayfalarından biri (onların qədim əcdadları uti adlandırılırdı) olub. Onlar barədə hələ 2500 il əvvəl Herodot "Tarix" əsərində məlumat verib. Marafon döyüşünü (m.ə. 490-cı ildə yunan-fars döyüşü) təsvir edən müəllif göstərir ki, fars ordusunda, XIV Satrapın tərkibində utilərin əsgərləri də vuruşurdular.



O cümlədən eramızdan əvvəl I əsrdə yaşamış Strabonun "Coğrafiya" əsərində Xəzər dənizi və Qafqaz Albaniyası haqqında məlumatda utilərdən danışılır.

Udi-uti sözünə isə termin kimi ilk dəfə Böyük Plininin (I əsr) "Həqiqi tarix" əsərində rast gəlirik. Ümumiyyətlə, bir çox qədim müəllifin əsərlərində onlarla bağlı məlumatlar var və həmin mənbələrdə bildirilir ki, utilər alban çarlığının yaranmasında mühüm rolu olan 26 tayfadan biridir. Azərbaycanın ərazisində yaranan ən qədim dövlət, e.ə. IV əsrdən VIII əsrin əvvəlinədək mövcud olan Qafqaz Albaniyası vilayətlərindən biri Uti adlanıb.

Udilər IV əsrin əvvəllərində xristianlığı qəbul ediblər. Vll-VIII əsrlərdə ərəblər Qafqaz Albaniyasını işğal edərək əhalinin böyük hissəsinə, o cümlədən udilərə islam dinini qəbul etdirsələr də, onların bir hissəsi - Qarabağ, Şəki-Zaqatala bölgəsindəki dağlıq ərazilərdə yaşayanlar öz siyasi-mədəni birliyini, dilini, etnik mənsubiyyətini qoruya biliblər.

VII əsrdə ərəb xilafətinin icazəsi ilə alban kilsəsi erməni qriqoryan kilsəsinin tərkibinə daxil edilir. O zamandan etibarən, rəsmən alban katolikosunun qalmasına baxmayaraq, alban xristianlarının zorla erməniləşdirilməsi siyasəti aparılır.

1836-cı ildə Rus Pravoslav Kilsəsi və Rusiya idarəçiliyi alban katolikosunun taxtını və dəftərxanasını ləğv etdikdən sonra udi xristianlar erməni kilsəsinin tam təsiri altına düşürlər. Yalnız indiki Qəbələ və Oğuz rayonları ərazisində yaşayan udilər öz etnik mədəniyyətlərini və dillərini qoruyub saxlaya biliblər.

Hazırda dünyada 10 min nəfərdən çox udi var. Onlardan 4 minə yaxını Azərbaycanda, əsasən, Qəbələnin Nic qəsəbəsində, Oğuz rayonunda yaşayırlar. Xarici ölkələrdə yaşayan udilərin hamısının tarixi vətəni Azərbaycandır.

Azərbaycanda xristian mədəni irsinə sahib olan udilərin, o cümlədən alban tayfalarının birbaşa erməni kilsəsinin ixtiyarına verilməsində məkrli niyyətlər güdülürdü. Məqsəd Qafqaz Albaniyasının xristian mədəni təməli üzərində erməni icmasının gücləndirilməsi idi. Ermənilər ədəbiyyatı, dəftərxananı, dini ocaqları öz kilsələrinə uyğun dəyişdirməyə başladılar. Onlar özlərinə sərf



edənləri tərcümə edib dəyişdirdilər, lazım olmayanları isə məhv etdilər.

Ermənilərin bura gəlmə yox, yerli xalq olması yalanına "həqiqi don" geyindirmək üçün Qarabağdakı Alban məbədləri saxtalaşdırılıb, onlardakı xaçlar oğurlanıb erməni qriqoryan xaçı ilə əvəz edilib.

Həmin dövrdə Çar Rusiyasının istəyi Azərbaycan ərazisində islam və xristian dinlərinə mənsub olan iki qütb yaratmaq idi. Ermənilərin mədəni irsə sahib olmalarına yalan üzərində şərait yaratdılar, "alban", "udi" sözünü isə terminologiyadan çıxartdılar. Bu zaman udilər özlərini qorumaq üçün fərqli bir yol seçdilər. Onlar erməni kilsəsinə gedib ibadət etmədiklərinə görə, özlərini qoruya bildilər.

### Alban irsinə böyük diqqət və qayğı



- Azərbaycan müstəqillik qazandıqdan sonra udilərin həyatında xeyli müsbət dəyişikliklər olub. Ulu Öndər Heydər Əliyev azsaylı xalqların və dini icmaların, o cümlədən Alban-udi xristian dini icmasının hüquqlarının və mədəni-mənəvi dəyərlərinin qorunmasına daim xüsusi diqqət göstərib. Prezident İlham Əliyevin isə qayğısı sayəsində 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən 3 xristian məbədindən biri - Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib və icmanın istifadəsinə verilib. Son 21 il ərzində Azərbaycan Prezidentinin Nic qəsəbəsinə 3 dəfə səfər etməsi isə dövlət tərəfindən icmaya göstərilən yüksək diqqət və qayğının bariz nümunəsidir.

Prezident İlham Əliyev dəfələrlə alban irsi məsələsini qaldırıb. Dövlət başçısı işğaldan azad edilmiş torpaqlara səfər edəndə alban kilsələrinə baş çəkir, onların bizim irsimiz olduğunu və dirçəldilməsinin vacibliyini vurğulayır. Bunlar sadəcə sözlər deyil. Bir vacib məqamı xatırladım ki, Nicdə yerləşən Müqəddəs Məryəm Ana alban kilsəsinin bərpa işləri pandemiyaya, 44 günlük müharibənin başlanmasına baxmayaraq, davam etdirilirdi. Hətta 2020-ci il noyabrın 7-də - Şuşanın azadlığından bir gün öncə kilsənin açılışı oldu. Kilsə Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa olunub.

2021-ci il mayın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Müqəddəs Məryəm Ana alban kilsəsində oldular. Həmin zaman cənab İlham Əliyev dedi ki, "Udi xalqının çox böyük tarixi mirası var. İndi həm Qəbələ rayonu ərazisində və eyni zamanda azad



edilmiş torpaqlarda siz gedib ibadət edirsiniz - həm Xudavəngdə, həm Ağoğlanda. Orada udi xalqına məxsus olan digər məbədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz".

Bu böyük xoşbəxtlikdir ki, biz azadlığa qovuşandan sonra dəfələrlə Qarabağ və Şərqi Zəngəzura gedib qədim kilsələrimizi ziyarət etmişik.

### Erməni xəbisliyinin yeni dalğası

- Kəlbəcərdə 35-ə, Xocavənddə 65-ə yaxın alban kilsəsi var. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində 200-ə qədər alban məbədi, monastrı, alban xristian kilsəsi ilə bağlı tarixi yerlər mövcuddur.

Nə islam dini gələndə, nə monqollar zamanı... alban kilsəsinə toxunulub, o öz statusunu saxlayıb, ta ki 1836-cı ilə qədər. 30 il ərzində isə Qarabağ və Şərqi Zəngəzurda erməni işğalçıları tərəfindən Qafqaz Albaniyasına məxsus irs dağıdılıb. Onların bir çoxu da ermənilərə sərf edən formada dəyişdirilib. Alban irsinin bölgənin tarixi baxımından əhəmiyyətini dərk edən ermənilər istər işğal illərində, istərsə də ondan əvvəl onu özlərinə bağlamaq və Azərbaycan torpaqlarına iddialarını bu amillə gücləndirmək üçün xeyli saxtakarlıqlar ediblər. Saxtakarların səyi ilə Qafqaz Albaniyasının və alban kilsəsinin irsinə aid olan bir çox şey mənimsənilib və ən acınacaqlısı isə budur ki, ermənilərin səyləri ilə beynəlxalq səviyyədə erməni irsi kimi qəbul edilib.

Hazırda isə vəziyyət ondan ibarətdir ki, ermənilər müharibədə məğlub olduqlarını özləri də artıq etiraf edirlər. Onlar Azərbaycan torpaqlarının əllərindən çıxdığını və geri qaytara bilməyəcəklərini anlayırlar. Məhz bu səbəbə görə Azərbaycan ərazisində erməni kilsəsinin hüquqi (kanonik) ərazisini saxlamaq istəyirlər. Onlar artıq torpaq əldə etmək üçün yox, alban irsinin erməniləşdirilməsi üçün çalışırlar. Çünki bu, gələcəkdə onlara Azərbaycana qarşı yenidən ərazi iddiası üçün zəmin yaradacaq. Onlar Qarabağdakı alban irsinin "Erməni Apostol Kilsəsi"nin irsi kimi təsbit edilməsini istəyirlər. Ancaq erməni kilsəsi həmişə Qriqorian olub və heç vaxt Apostol (alban kilsəsi qədim Apostol, müstəqil (avtokefal) şərq kilsəsidir. Bu kilsələrə Birinci Həvarilərin kilsəsi də deyilər) olmayıb. Yalnız SSRİ-nin dağılmasından sonra, yəni



1991-ci ildə Apostol kilsəsi olmağa başlayıb. Yəni bu mənada biz hələ də ermənilərlə müharibə aparırıq.

Buna görə də bu gün bizim yaxşı arxeoloqlara, tarixçilərə ehtiyacımız var ki, həmin irsi dərindən araşdırsınlar. Vatikandan olan bir jurnalistlə bu yaxınlarda Qarabağa gedib alban kilsələrinə baş çəkdik. O, bununla bağlı dörd məqalə hazırladı. Birinci məqalə çap olunandan sonra ermənilər böyük hay-küy qaldırdılar, məsələni səfirliklərdən tutmuş, Papaya kimi qaldırdılar ki, bu məqalə niyə yazılıb?!. Yəni ermənilər dünyada bizə qarşı belə ciddi təzyiqlər göstərirlər.

Buna görə qətiyyətli addımlar atmalıyıq, dünyada tanıtmalıyıq ki, alban irsi, əslində, bizimkidir. Həmçinin kilsənin statusu bərpa olunmalıdır. Xristianlığın öz qanunları var. Kilsənin metropolu olmalıdır ki, o kiməsə xeyir-dua versin. Bizim kilsələrin axırıncı metropolu Sergey Qanzasarski olub, onu öldürüblər. İndi bizdə din xadimi təyin etmək üçün müəyyən bir xeyir-dua prosesinə (xirotoniya) ehtiyac var. Hazırda onu icra edə bilmirik. Çünki bizdən qabaq olan din xadimi yoxdur deyə, bu ardıcıllıq pozulub.

Bu baxımdan alban kilsələrinə təyinatlar olmalıdır. Azərbaycan İlahiyyat İnstitutunda Xristianlıq fakültəsi açılıb. Artıq 18 nəfər nicli gənc həmin fakültəni bitirib. Gələcəkdə onları kilsələrə din xadimi təyin etmək istəyirik.

### "Udilərin ermənilərlə sadəcə din yaxınlığı var, başqa heç nə..."

- Bir xüsusi məsələ də odur ki, biz Qarabağ və Şərqi Zəngəzurdakı alban kilsələrini "doğmalaşdırmalıyıq". Aparılan saxta siyasət nəticəsində illər idi ki, udiləri erməni ki-



mi tanıyırdılar. İctimaiyyətə xaç və kilsəni, ümumiyyətlə, xristian anlayışını ermənilərinki kimi qəbul etdirmişdilər. Yəni xaç gördünsə, demək, erməninindir. Bilirsiniz bu nə deməkdir?!. Bu faciədir!

İndi din xadimləri işğaldan azad edilən ərazilərə köçən insanları məlumatlandıracaqlar ki, bunlar erməninin deyil, bizim kilsələrimizdir. Xatırlayıram, Nicdə kilsə açılanda əvvəlcə ora yalnız udilər, bir də əcnəbilər gəlirdilər. Lakin getdikcə yerli əhali də böyük maraqla həmin kilsələri ziyarət etməyə başladı. Qarabağ və Şərqi Zəngəzurda da belə olacaq.

Vətən müharibəsi başlayanda ermənilər öncə buna din donu geyindirmək istəyirdilər, sonra milli təfriqə salmaq niyyətinə düşdülər. Ancaq heç cür bacara bilmədilər. Udilər də, Azərbaycanda yaşayan digər azsaylı xalqların nümayəndələri də, dilindən, dinindən, milliyyətindən asılı olmayaraq hər biri işğalçı Ermənistana qarşı qəhrəmanlıqla döyüşərək torpaqlarımızı düşməndən azad etdilər.

İndi isə onlar görürlər ki, alban-udi xristian icması güclənir, ona görə də bu yaxınlarda Ermənistanda "Alban-udi xristian icması" yaradıblar. Bir xanımı da onun rəhbəri qoyublar. İstəyirlər ki, o, mənimlə əlaqə saxlasın. Onlara dedim ki, "həmin xanımla o zaman əlaqə saxlayaram ki, o mənimlə öz ana dilində danışsın. Əgər dediyiniz kimi "icma"da 200 nəfər udi varsa, istəyirəm ki, onlar öz ana dillərində danışsınlar. Əgər belə olarsa, çəkinmədən onlarla görüşə gedərəm, onları da bura dəvət edərəm". Amma bilirəm ki, yoxdur... Mənə deyirlər ki, "onlar udidir, amma dillərini unudublar". O zaman



cavab verirəm ki, "əgər dilimizi bilmirlərsə, demək ermənidirlər". Səsləri çıxmır. Udilərin ermənilərlə sadəcə din yaxınlığı var, başqa heç nə. Nə millət, nə dil... Tək bir dənə də sözümüz yoxdur ki, onlarınkı ilə eyni demirəm, heç olmazsa oxşar olsun...

Onlarla "yaxın", "qardaş" olmağımızla bağlı uydurmaları isə ermənilərin özlərinə sərf edən siyasətdir. Bizim irsə yiyələnmək kimi murdar niyyət güdürlər...



***Bəli, nə yazıq ki, "böyük Ermənistan" xülyasına düşərək əsrlərdir torpaqlarımıza göz dikən və xalqımızın başına müsibətlər gətirən faşist ideologiyalı ermənilərin qəddarlıqla qurbanlarına çevirdikləri və azsaylı xalqlardan birinə döndərdikləri udilər hələ də erməni məkrinin hədəfindədir.***

***Ancaq necə ki 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri sayəsində Qarabağ və Şərqi Zəngəzurdakı Alban dini irsi barbarlardan xilas edildi, Qafqaz Albaniyasının dini varisləri udilər də indən sonra da Azərbaycanda varlıqlarını sürdürərək ermənilərə gözdağı olacaqlar.***

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*







# Mədəniyyət







**● Sənətkarlarımız**

# Möhlət MÜSLÜMOV:

# "Muğamı öyrənməyə bir insan ömrü çatmır"

**"Tar mənim kimliyimdir. Millətimin səsidir. Sinəmə sıxdığım vətənimdir. İgidlərimizin yolunda can qoyduğu müqəddəs torpağımdır. Ruzim, bərəkətimdir. Tarımı əlimə alanda elə sanıram ki, onunla birlikdə tarixin geridə qalan min illiklərinə səyahət edirəm. Tarda ruhumun nəğməsini ifa edirəm... Azərbaycan muğamları ruhun nəğməsidir. Əcdadlarımızın qəhrəmanlıq səsidir...**

**Mən sazı da çox sevirəm. Saz tarın babasıdır. Hərdən deyirəm ki, biz kimliyimizi sübut etmək üçün bir əlimizdə saz, bir əlimizdə tar tutsaq, bütün dünyaya necə millət, necə böyük mədəniyyətə xas xalq olduğumuzu göstərərik. Xarici ölkələrdə qastrollara gedəndə dəfələrlə şahidi olmuşam ki, konsertdən sonra 10-12 ölkənin səfiri gəlib bizim səfirimizə deyiblər ki, biz sizin sənətkarları qonaq etmək istəyirik. Azərbaycanın nə möhtəşəm musiqisi, mədəniyyəti var. Bununla bizim necə bir xalq olduğumuzu tanıyırlar. Çox heyif ki, 30 ildə başımıza müsibətlər gətirdilər. Biz ədalətsizliklərə layiq xalq deyilik".**



Həmsöhbətimiz ömrünü Azərbaycan musiqisinə, Azərbaycan mədəniyyətinin inkişafına həsr etmiş, "Azərbaycan Dövlət Televiziya və Radio" Qapalı Səhmdar Cəmiyyətinin Ə.Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri, Milli Konservatoriyanın professoru, Xalq artisti, tarzən Möhlət Müslümovdur. Ömrünün 70 ili ilə yenicə xudahafizləşən tarzən deyir ki, başım tar çalmağa elə qarışdı ki, 70 ilin necə gəlib-keçməsini hiss etmədim. Ciddi görkəmli, sakit təbiətli, öz peşəsinin məftunu olan Möhlət Müslümov ömrünün geridə qalan illərindən o qədər maraqla danışır ki... Adama elə gəlir ki, söhbət etmir. Keçmişindən, uşaqlıq illərindən bəhs edəndə sanki tarı sinəsinə sıxıb sakit-sakit, "Şur", "Bayatı-Şiraz" muğamlarını ifa edir. Xarici səfərlərdə ermənilərlə olan xatirələrini yada salanda sifətinin görkəmi də, səsinin tonu da dəyişir. Döyüşə girən bir qəhrəman kimi qəddini düzəldir. Adamın qulağına istər-istəməz zərb muğamlarımızın hayı-harayı, "Heyratı"nın, "Mənsuriyyə"nin ahəngi gəlir...

Onunla Milli Konservatoriyada görüşdük. Qonşu otaqdan gələn həzin tar səsi söhbətimizi daha da şirinləşdirirdi. Möhlət müəllimlə arxada qalan 70 ilin səhifələrini birlikdə vərəqlədik.

- Elə günüm olmaz ki, uşaqlığımı xatırlamayım. Dədə-babam tərəkəmə olub. Kasıb bir ailədə böyümüşəm. Atam fəhlə işləsə də, musiqiyə böyük marağı var idi. Xüsusən də muğamlarımızı çox sevirdi. Saatlarla oturub muğamata qulaq asardı... Atam tez-tez deyərdi: "Müharibənin üzü qara olsun. İmkanım olmadı ki, bir tar alam. Vaxtında tar ala bilsəydim, mahir tarzən olardım".

### "Uşaqlıqdan mahnı oxumuşam"

Görünür, musiqiyə olan maraq mənə atamdan keçmədir. Deyirlər ki, dil açandan, iki yaşımdan Qulu Əsgərovun ifasında "Bəyənmir məni" mahnısını oxumuşam. Musiqiyə olan marağımı görüb mənə nağara alıblar. Öz-özümə nağara çalmağı öyrənmişəm.

Biləcəridə yaşayırdıq. Evimizdən bir qədər aralı musiqi məktəbi var idi. 10 yaşım olanda atam məni apardı Biləcəridəki 18 nömrəli musiqi məktəbinə. O zaman musiqi məktəbinə qəbul da bitmişdi. Artıq iki ay idi ki, dərslər keçilirdi. Direktor dedi ki, bu vaxtı məktəbə uşaq qəbul edərlər? Kor-peşman qayıdırdıq ki, direktor nə fikirləşdisə, bizi geri çağırdı. Dedi: "Getməyin! Uşağın, sluxunu, yoxlayım". Yoxladı... Tez katibəsini çağırıb dedi ki, bu uşağın sənədlərini hazırlayın, qəbul edirik. İkinci sinifdə oxuyanda müəllim bizə "Çahargah" muğamını keçirdi. 12 yaşım var idi. Müəllim mənə ev tapşırığına "Bəstənigar" şöbəsini tapşırmışdı. Yolboyu müəllimin mənə öyrətdiyini yadımda saxlayım deyə, zümzümə edirdim. Ertəsi gün nə qədər etdim müəllimin öyrətdiyi musiqini xatırlaya bilmədim. Başqa çıxış yolum qalmadığı üçün tam fərqli, özümdən bədahətən bir "Bəstənigar" yaratdım. Bu bir möcüzə idi. Növbəti dərs günü məktəbdə müəllim dedi ki, dur dərsimizi təkrar et. Dərsi təkrarlayanda gördüm müəllim Nadir Hüseynov çox heyranlıqla mənə qulaq asır.

Sonra soruşdu ki, bunu kim öyrədib sənə. Cavab verdim ki, siz öyrətmisiniz. "Yox" dedi. "Mən sənə belə "Bəstənigar" öyrətməmişəm". Evdə, qonşunuzda, qohumunuzda başqa tar çalan var", - deyə soruşdu. "Yox" cavabını verdim. Onu da deyim ki, "Bəstənigar", "Çahargah"ın çox çətin şöbəsidir. Deyirlər ki, "Segah" şirindir. Amma "Bəstənigar"da elə şirinliklər var ki, onu hətta bəzi peşəkar ifaçılar olduğu kimi verə bilmirlər.

Nadir müəllim bayıra çıxıb bütün müəllimləri çağırdı. Onlardan biri, Elbrus Qasımov uzun illər Az.TV-də musiqi verilişlərinin baş redaktoru olub, dedi ki, gəlin bu uşağa qulaq asın. Özü bir "Bəstənigar" düzəldib ki, mən beləsini hələ eşitməmişəm. Əlini başıma çəkəndə bildim ki, yaxşı iş görmüşəm.

Atamı çağırıb dedilər ki, bu uşağı qoru... Bu professional bir tarzən kimi özündən muğam hazırlayıb. Heç kimdən eşitmədiyimiz elə xallar vurur ki, barmaqlarını elə işlədir ki, təəccübləndik.

Ondan sonra müəllimlərimin nəzarəti üstümdə daha da artdı. 5 il orada musiqi təhsili alıb gəldim Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinə...

Möhlət müəllim deyir ki, o zaman Asəf Zeynallı adına Musiqi Məktəbi Şərq dünyasında birnömrəli məktəb idi. Asəf Zeynallını müvəffəqiyyətlə bitirən Möhlət Müslümova məktəbdə qalıb müəllim kimi fəaliyyət göstərmək təklif olunur. O deyir:

- Müəllimliyə başlayanda 22 yaşım var idi. Həm mənə tələbə verdilər, həm də Nəriman Əliyevin xanəndə sinfində konsertmeyster kimi çalışdım. O zaman hər adamın işi deyildi ki, onu Asəf Zeynallıya işə qəbul etsinlər. Vasif Adıgözəlov məni imtahan etdikdən sonra son qərar verildi. Hətta müəllimlərdən biri mənə baxıb şöbə müdirinə dedi ki, inanmıram bu Nəriman Əliyevin sinfi ilə işləyə bilsin. Amma mən düz 15 il o sinifdə konsertmeyster kimi çalışdım.

Mən də öz sənətimin fanatıyam. Sənətə pul, şöhrət üçün gəlməmişəm. Heç ağlımdan keçirməzdim ki, Xalq artisti, professor olaram. Sadəcə onu bilirdim ki, öz sənətimi dəlicəsinə sevirəm.

### "Axtardıqlarımı bəzən yuxuda tapırdım"

Möhlət müəllim deyir ki, insan keçmişini bilmədən gələcəyə gedə bilməz. Gərək haradan gəlib, hara getdiyini anlayasan. Gərək insan çalışa, əziyyət çəkə ki, nəyəsə nail olsun. 1994-cü ildə Həbib Bayramov dünyasını dəyişdi: "Mən Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblının bədii rəhbəri oldum. O ansambl



Üzeyir bəy Hacıbəylinin, Müslüm Maqomayevin yaratdığı ilk professional ansambldır. Oraya məni təyin edəndə qayda-qanun var idi. Mənə tapşırdılar ki, keçmiş səslənməni bərpa edim. Bilinməsin ki, yenilik etmisən. Mən yenilik tərəfdarıydım... Gəncliyimdə o qədər tar çalırdım ki, axtardığımı tapa bilmirdim. Yorulub yatırdım. Yuxuda tapırdım.

Mən muğamı məşq etməyi xoşlamıram. Onu qəlibə salmaq olmaz. Yeni barmaqlar, yeni mili-zimlər edirdim. O qədər özümdən böyüklər, həmyaşıdlarım, hətta kiçiklər tərəfindən baltalanmışam ki... Ona görə də efirdə klassik, ata-baba yolu ilə ifa edirdim. Toylar bizim özümüzü, imkanlarımızı açmaq üçün bir meydan idi. Bir də görürdün ki, lentlərin yazılıb, bütün dünyaya yayılıb.

İndiki yeniliklərdən demirəm. İndi bilmirsən musiqinin atası kimdir, anası kimdir. Bir az farsdan, bir az türkdən, bir az ərəbdən, bir az da yunan musiqisindən götürüb qarışdırıb deyirlər mən yenilik etdim. Mahnıların başına oyun gətirirlər.

Əhsən Dadaşov adına musiqi müsabiqəsində münsiflər heyətinin üzvüyəm. Orada da dəfələrlə demişəm ki, dahi bəstəkarlar var, onların möhtəşəm əsərləri var. Biz onlara müqəddəs bir sənət nümunəsi kimi baxırıq.

İndiki "yenilikçi"lər kiminsə mahnısının girişini dəyişib, cüzi əl gəzdirib öz adlarına çıxırlar. Dəryadan bir damcı götürən özünü muğam bilicisi sayır. Muğam elə bir dəryadır ki, getdikcə, gedirsən, onun dibinə çata bilmirsən.

Muğam müqəddəs bir xəzinədir. Allah onu bizim xalqa nəsib edib. Bunu öyrəndikcə, öyrənirsən".

### "Sənətdə bir sahman lazımdır"

70 ilin sənətkarı, Xalq artisti indi səhnədə, televiziyada baş verənlərə od püskürdü. Hətta dedi: "Məni qınasalar da deyəcəyəm ki, hərdən könlümdən sərt qanunların, senzuranın tətbiq olunması keçir. Senzura özbaşınalığa nəzarət idi. Gəlirdin ifa edirdin. Bir çatışmazlıq olanda keçmirdi. Onu düzəltmək üçün sənə 6 ay vaxt verirdilər. Gedib oturub işləyib, nöqsanını aradan qaldırırdın. Sənətdə bir sahman lazımdır.

Bizim Əhməd Bakıxanov adına ansamblda 18 nəfər çalışırdı. Hamı kostyumda, ağ köynəkdə, qalstukda olmalıydı. Xatırlayıram ki, bir gün teleteatrda dəsgah yazırdıq, ansamblın solistlərindən biri fərqli bir corab geyinmişdi. Bizi saxladılar. Corabını dəyişdirəndən sonra işi davam etdirdik. Köhnə lent yazılarına baxın. İnsanların oturuşu, duruşu bir mədəniyyət məktəbi idi. O texnika ilə görün necə səs yazırdılar. Əsl sənət nümunəsi qoyulurdu ortalığa. İndi texnikanın imkanları genişlənib, ifaçıların səviyyəsi enib".

### "İfaçılıqda ən çətin iş müşayiət etməkdir"

Sənətkar onu da bildirdi ki, xanəndələr də müxtəlif cürdür: "Elə xanəndə var düzgün ifa edir. Çox rahat müşayiət etmək olur. Hər şeyi yerində düz oxuyur. Xanəndə də var ki, ortababdır. Eləsi də var ki, "Rast"ın ayağını "Mahur"la verir. Onda müşayiət etməkdə çətinlik çəkirsən. Məcbur olub musiqini saxlayıb iradımı bildirdiyim də olub. Mən həm solist, həm müşayiətçi, həm ansambl rəhbəri, həm də müəlliməm. İfaçılıqda ən çətin hesab etdiyim müşayiətdir. Solistlik çox asandır. Necə deyərlər, öz əlin, öz başın. Sxemini tutub gedirsən. Müşayiət niyə çətindir? Tar üçlükdə aparıcı alətdir. Özünə, xanəndəyə, həm də kamança ifaçısına da sən cavabdehsən. Tar ideya verəndir. Bir də görürsən xanəndə elə nəfəs edir ki, musiqi ona bağlanmalıdır. Elə xanəndə olur ki, onu yığıb-yığışdırmaq olmur. Mən kimləri muşayiət etməmişəm? İldırım Həsənovu, Əbülfət Əliyevi, Şövkət Ələkbərovanı, Sara Qədimovanı, Tükəzban İsmayılovanı, Hacıbaba Hüseynovu, Ağaxan Abdullayevi, Canəli Əkbərovu....

Əhməd Bakıxanov adına ansamblla 1994-cü ildən bu günə kimi 200-dən çox muğam müşayiət etmişəm. Elə xanəndə var bizim ansamblla 4-5 muğam oxuyub. Üçlüklə də çox müşayiətim olub".

### "Tarın erməniyə aidiyyəti yoxdur"

Möhlət Müslümov qastrol səfərləri ilə bağlı maraqlı söhbətlər etdi: "Hollandiyada konsert proqramı ilə çıxış etmək üçün təklif almışdıq. Proqrama 12 konsert daxil idi. Eyni zamanda yaradıcılıq görüşləri də nəzərdə tutulurdu. Rotterdamda bir ansambl var. O ansamblda mizrabla ifa edən oğlan bütün simli alətləri ifa edə bilir. Gözəl bir ansambldır. Dünya xalqlarının musiqisini ifa edirlər. Onlarla yaradıcılıq görüşümüz mübahisə ilə başladı. Nə yaxşı ki gedəndə tara aid yazılan bir kitabı da özümlə götürmüşdüm. Vaqif Əbdülqasımovun ingilis dilinə tərcümə olunmuş kitabı idi. Şumerlərdən tutmuş Sadıqcana kimi tarın keçdiyi yol haqqında bir kitab idi. Bir nəfər təzə düzəldilmiş bir tar gətirib qoydu qarşıma ki, bu musi-



qi aləti ermənilərə aiddir. Götürdüm tarı əlimə gördüm nə pərdələr yerindədir, nə simləri tar simidir. Tarın simlərini dəyişdim. Tərcüməçiyə dedim ki, izah etsin ki, erməni tar düzəldə bilər. Amma tar onlara məxsus musiqi aləti deyil. Tar İranda da var, özbəklərdə də var. Amma tarın yaradıcısı Azərbaycandır. Sadıqcan inqilab edib tarı dizdən sinəyə gətirib. Bu tarı erməni bu adama baha qiymətə satdığı üçün elə hesab edir ki, erməninin dediyi kimi, tar onlara məxsusdur. Mübahisədən sonra götürüb tarımı köklədim. Buna bir az "Çahargah" muğamını, bir az da "Rast"ı öyrətdim. Zurna çalanımız buna "Şəki yallısı" öyrətdi. Özü də o qədər peşəkardır ki, izah edən kimi bir dəfəyə götürürdü. Kitabı da buna verib dedim ki, get oxu. Sonra gəl söhbətimizi davam etdirək. Kitabı oxuyandan sonra mənə zəng vurdu ki, gəlirəm. Gəlib üzr istədi".

### "Dövlətimizin başçısı Qarabağı cənnətə döndərib"

Sənətkar arzusunu da dilə gətirdi:

- Ən böyük arzum idi ki, Qarabağ azad olunsun, gedim orada 7 gün 7 müqəddəs muğamımızı ifa edim. Laçın, Şuşa, Füzulidə olmuşam. Erməni vandallığını görəndə ürəyim ağrıdı. Çox şükür ki, indi Qarabağ qurulur, gözəlləşir... Qarabağın xilaskarı, möhtərəm Prezidentimiz bu yerləri gülüstana, cənnətə çevirir. Bir məsələni də qeyd edim ki, hörmətli Mehriban xanım Əliyevanın diqqəti və qayğısı nəticəsində Azərbaycan muğamı Azərbaycan mədəniyyətinin incisi kimi çox gözəl şəkildə dünyaya təqdim olunur. Dünya Azərbaycan muğamı ilə mədəniyyətimizi, incəsənətimizi tanıyıb, xalqımızın necə zəngin xəzinəyə sahib olduğunu öyrənir. İndi cənnət Qarabağda mənim də arzumu reallaşdırmaq vaxtı çatdığını düşünürəm. Qarabağ azad olunduqdan sonra 6 dəfə Qarabağda olmuşam. Hər dəfə Qarabağa gedəndə dinamik inkişafı görüb hətta təəccüblənmişəm də... Qarabağın xilaskarı möhtərəm Prezidentimizə dünyada üzümüzü ağ, müzəffər xalq etdiyi üçün çox minnətdaram. İndi xarici səfərlərdə bizi qəhrəman bir xalqın nümayəndələri kimi qəbul edirlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Milli Teatrda "Tanrı quşu gəlmədi" tamaşasının premyerası olacaq

**Oktyabrın 29-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Tanrı quşu gəlmədi" tamaşasının premyerası olacaq.**




Premyera teatrın "Bölgə teatrlarının Bakı premyeraları" layihəsi çərçivəsində həyata keçiriləcək. Layihənin məqsədi bölgə teatrlarının yaradıcı həyatını stimullaşdırmaq, gənc rejissorların quruluş verdikləri tamaşaları paytaxt tamaşaçılarına təqdim etməkdir.

Yeni layihə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

Yazıçı Cavid Zeynallının eyniadlı pyesi əsasında rejissor Anar Babalının Lənkəran Dövlət Dram Teatrında quruluş verdiyi, psixoloji-dram janrında olan səhnə əsəri günah, qisas və yalan haqqındadır.

Yeni yaradıcılıq işində rollarda Xalq artisti Qabil Quliyev, aktyorlar Qızılgül Quliyeva, Saleh Əzimzadə, Gülər Kərimova, Elçin Hacı, Əlizamin Abbasov və İmaməli Əsgərov çıxış edirlər. Səhnə əsərinin quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Aydan Əliyevadır. Tamaşada istifadə olunan mahnının sözləri Banu Muharremindir.

## "Aşıq dastanları"nın ikinci cildi nəşrə hazırlanır

**Azərbaycan Aşıqlar Birliyinin (AAB) son illərdə həyata keçirdiyi uğurlu layihələrdən olan "Aşıq dastanları" antologiyasının 2-ci cildi üzərində iş yekunlaşmaq üzrədir.**




Kitabın elmi redaktoru Azərbaycan Aşıqlar Birliyinin sədri professor Məhərrəm Qasımlıdır. AAB-nin katibi Musa Nəbioğlu bildirib ki, antologiyanın bu cildində "Əsli və Kərəm", "Yetim Aydın", "Qul Mahmud və Nigar xanım", "Məsum və Diləfruz", "Alı xan və Pəri", "Məhəmməd və Güləndam", "Nəcəf və Pərizad", "Şahzadə Əbülfəz", "Səyyad və Səadət", "Abdulla və Cahan" və "Aşıq Hüseyn və Reyhan xanım" dastanları yer alacaq.

## Gənclər Kitabxanasında gənc bəstəkar Ərtoğrul Cavidin xatirəsinə həsr olunmuş material hazırlanıb




**Görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin oğlu, gənc, istedadlı bəstəkar Ərtoğrul Cavidin anadan olmasından 105 il ötür.**

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Hüseyn Cavid ocağının varisi, həyatının 24-cü payızında vəfat edən Ərtoğrulun xatirəsinə həsr edilmiş məlumat bülleteni hazırlanıb.

Kitabxanadan bildirilib ki, "Türk oğlu Ərtoğrul Cavid-105" adlı materialda istedadlı bəstəkar, şair və rəssamın həyat və yaradıcılığı, 34-dən artıq xalq mahnısı və el havalarını nota köçürməsi, öz yaradıcılığında onlardan yararlanaraq yaratdığı gözəl romans və mahnılar haqqında məlumat verilir. Materialda Əməkdar elm xadimi, akademik, görkəmli ədəbiyyatşünas, tənqidçi Məmməd Cəfər Cəfərov, Xalq artisti, bəstəkar Cahangir Cahangirov, Xalq yazıçısı Anar və digər görkəmli şəxslərin gənc bəstəkar haqqında söylədikləri dəyərli fikirlər, Ərtoğrul Cavid haqqında qələmə alınan "Cavid ocağının istedadla nurlanmış övladı", "Hüseyn Cavidin natamam əsəri - Ərtoğrol Cavid", "Vaxtdan uca", "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid", "Balaca pianoçunun musiqi albomu" kimi kitabların biblioqrafik təsviri və qısa annotasiyası, 2009-2023-cü illəri əhatə edən dövrü mətbuat nümunələri yer alır.

## "Aysedora" monotamaşası növbəti dəfə səhnədə

**Oktyabrın 24-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Aysedora" monotamaşası yenidən nümayiş olunacaq.**



Teatrdan bildirilib ki, məşhur rus yazıçı-dramaturqu Zinovıy Saqalovun "Aysedoranın üç həyatı" pyesi əsasında hazırlanan tamaşanın rejissoru və bədii redaktoru teatrın baş rejissoru Cavid İmamverdiyevdir.

Səhnə əsəri XIX-XX əsrlərdə yaşamış məşhur amerikalı rəqqasə Aysedora Dunkanın keşməkeşli həyatından bəhs edir. Tamaşada Aysedoranın dahi rus şairi Sergey Yeseninlə, məşhur teatr xadimi Qordon Kreq və o dövrün müəyyən görkəmli simaları ilə münasibətləri obrazlı şəkildə göstərilir.

"Sevgi və yaradıcılıq" mövzusunun ön plana çəkildiyi bu tamaşada Aysedora obrazını teatrın istedadlı solisti Olqa Georgiyeva canlandırır.

Tamaşanın bədii rəhbəri Əməkdar incəsənət xadimi, fəlsəfə doktoru Əliqismət Lalayev, musiqi rəhbəri Əməkdar artist Fəxrəddin Atayev, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, baletmeysteri Əməkdar artist Nigar Şahmuradova, musiqi redaktoru Nigar Süleymanovadır.

# Konstitusiya Məhkəməsi Qarabağda Hüquq olimpiadası keçirib

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmiş torpaqlarımızda təhsilin inkişafı ilə bağlı görülən tədbirlərin xüsusi əhəmiyyəti nəzərə alınaraq cari il oktyabrın 14-18-də Konstitusiya Məhkəməsi Elm və Təhsil, Gənclər və İdman nazirlikləri ilə birlikdə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetinin tələbələri, habelə Xankəndi və Şuşa şəhərləri, Füzuli, Laçın, Zəngilan və Xocalı rayonlarının orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında "Zəfər çalmış dövlətin Əsas Qanunu" mövzusunda Hüquq olimpiadası keçirib.**



Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Hüquq olimpiadası Konstitusiya Günü münasibətilə təşkil olunub.

Qaliblərin mükafatlandırılma tədbirində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə Konstitusiya Məhkəməsi Aparatının şöbə müdiri Dürdanə Məmmədova Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin olimpiada iştirakçılarına təbrik müraciətini çatdırıb.

Daha sonra olimpiada haqqında məlumat verilərək Konstitusiya Məhkəməsi tərəfindən gənclər arasında konstitusion dəyərlərin təbliği məqsədilə ənənəvi olaraq olimpiadaların təşkil olunması, maarifləndirmə işlərinin aparıldığı qeyd edilib.

Tədbirdə çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan hüquqi dövlət quruculuğu və gənclərin hüquqi dünya görüşlərinin artırılmasının vacibliyini vurğulayıb.

Yekunda 70 nəfər fərqləndirilərək Konstitusiya Məhkəməsinin diplomları və müxtəlif hədiyyələri ilə təltif olunub.

# İlahiyyat İnstitutunda "40 ayə" yarışması olub

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "40 ayə" yarışması keçirilib. Müsabiqə AİI-nin tələbələri arasında baş tutub.**





Münsiflər heyətində İlahiyyat fakültəsinin müəllimləri - fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov, fəlsəfə üzrə fəlsəfə doktoru Əmir Kahayev, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Əhmədzadə və Əbülfət Vəliyev təmsil olunublar.

İnstitutun rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamlayıb, tələbələrin dini, dünyəvi biliklərə yiyələnməsi istiqamətində AİI-nin müsbət fəaliyyətini vurğulayıb. Rektor bildirib ki, belə yarışmalar gənclərin ümumi biliyini və dünyagörüşünü artırır, öz biliklərini daha çevik şəkildə ifadə etmək təcrübəsi qazanmağa imkan verir.

Tələbələr tərəfindən maraqla qarşılanan yarışmada qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyən olunub. Beləliklə, "40 ayə" yarışmasında birinci yerə "İslamşünaslıq" ixtisasının I kurs tələbəsi Elvin Qurbanov, ikinci yerə "İslamşünaslıq" ixtisasının IV kurs tələbəsi Rauf İbrahimxəlilov, üçüncü yerə isə "Dinşünaslıq" ixtisasının IV kurs tələbəsi Zeynəb Xəlilli layiq görülüblər.

Müsabiqənin sonunda qaliblər mükafatlandırılıb, iştirakçılara diplom və təşəkkürnamələr təqdim edilib.

Xatırladaq ki, ali təhsil müəssisəsində tələbələrin dünyagörüşlərinin formalaşdırılması, intellektual səviyyələrinin, elmi biliklərinin artırılması, gələcəkdə mütəxəssis kimi yetişmələri üçün müxtəlif yarışmalar, müsabiqələr keçirilir.

*"Azərbaycan"*

# Antibiotiklərin effektivliyi sürətlə azalır

**Bakteriyaların yaratdığı iltihabi prosesin müalicəsi ötən əsrin ortalarından istifadəsinə başlanılmış antibakterial preparatlarsız mümkün deyil.**



Antibiotiklər yeni kəşf edildikdə belə bir fikir formalaşmışdı ki, bütün infeksiyalar məhv olacaq. Ancaq üzərindən uzun illər keçməsinə baxmayaraq, pnevmoniya, bronxit, sistit, prostatit, bakterial meningit, tonzillit, mastit kimi xəstəliklərin müalicəsi zamanı həkimlər hələ də ciddi çətinliklərlə üzləşirlər.

Son tədqiqatlardan sonra alimlər bu qənaətə gəliblər ki, antibiotiklərin effektivliyi sürətlə azalır və hətta bəşəriyyət penisillinin kəşfindən əvvəlki dövrə qayıda bilər. Mikrobların inkişafını dayandıran və onları məhv edən antibiotiklər aşkar edilənə qədər yoluxucu xəstəliklər milyonlarla insanın ölümünün əsas səbəbi olub. 1928-ci ildə şotlandiyalı bakterioloq Aleksander Fleminq tərəfindən təsadüfən yaradılan ilk antibiotik olan penisillin kəşf edilənə qədər taun, vəba, tif, vərəm və çiçək epidemiyaları kütləvi ölümlərlə nəticələnib. Hətta 1665-ci il London vəba epidemiyasında yazılmışdı ki, "sağ qalanlar ölüləri basdırmağa kifayət etmədilər". Hazırda isə penisillin əhəmiyyətini, demək olar ki, tamamilə itirib. Buna səbəb əksər mikrobların penisillini parçalayan "penisillinaza" adlı ferment hazırlamaqla, özlərini ondan qoruya bilməsidir.

Tibb üzrə mütəxəssislər antibakterial dərmanların effektivliyinin sürətlə aşağı düşməsindən ciddi narahatlıqlarını ifadə edirlər. Onlar xəbərdarlıq ediblər ki, əgər bu tendensiya davam edərsə, 2050-ci ilə qədər dünyada antibiotiklərə davamlı infeksiyalardan təxminən 40 milyon insan ölə bilər. Artıq bu gün Avropa İttifaqında bu rəqəm ildə 35 min ölümü keçib.

Yeni antibiotiklərin çatışmazlığı və tədqiqatlara kifayət qədər maliyyə ayrılmaması vəziyyəti daha da ağırlaşdırıb. Son 18 ildə cəmi 12 yeni preparat təsdiq edilib. Hazırda dünyada təxminən 200 növdən çox antibiotik var. Növünün bu qədər çox olmasının səbəbi isə özlərini antibiotiklərin hücumundan qorumaq üçün mikrobların bəzilərinin onlara qarşı davamlılıq yaratmasıdır. Ən pisi də odur ki, bir-biri ilə cütləşən bu mikroblar antibiotiklərə qarşı davamlılığı bir növdən digərinə ötürürlər. Məhz buna görə alimlər daim yeni növ antibiotiklər hazırlamağa məcbur olurlar.

Mütəxəssislər antibiotiklərin effektivliyinin azalmasına səbəb kimi iki əsas amili müəyyənləşdiriblər. Birincisi, antibiotiklərin əsassız və həddindən artıq istifadəsi, o cümlədən tənəffüs yolları xəstəliklərinin müalicəsində zəruri olmadığı hallarda qəbul edilməsidir. İkinci amil antibiotiklərə davamlı bakteriya ştamlarının yayılmasına kömək edən COVID-19 pandemiyasından sonra beynəlxalq səyahətlərin artması ilə əlaqədardır.

Demək olar ki, bakteriyalar dərman preparatlarından "qorunmağı öyrəniblər". Onlar antibiotikləri məhv edən xüsusi enzimlər ifraz edir, "yatmış forma rejiminə" keçir, preparatların təsirindən və orqanizmin immun hüceyrələrindən qorunmaq üçün mikrob koloniyaları yaradırlar. Mikrob koloniyasındakı müxtəlif növlərdən olan bakteriyalar, sadəcə uğurlu bir şəkildə yaşayıb çoxalmaqla bərabər, eyni zamanda onlara qarşı istifadə olunan antibiotiklərə "davamlı" olmağı və antibiotikin müqavimətinə dair genetik məlumatları mübadilə etməyi bacarırlar. Bu fakt "antibiotikə müqavimətli" vəziyyət adlanır. Müasir farmasevtik bazarda bakteriyaların vərdiş etmədiyi antibiotiklərə ildən-ilə daha az rast gəlinir.

Antibiotiklər həmişə immun sisteminin vəziyyətinə mənfi təsir göstərir və xəstəlik, bir qayda olaraq, orqanizmin müdafiə xüsusiyyətlərinin zəifləməsi fonunda yaranır. Buna görə də, immunomodulyator təsirə malik əlavə preparatlar tələb olunur. Ümumdünya Səhiyyə Təşkilatı bu vəziyyətin həddindən artıq ağır olduğunu qəbul edib və bütün ölkələrin elm xadimləri üçün milli prioritet sayılan - mövcud antibiotiklərin təsirlərini artıran dərman preparatlarının axtarışı haqqında düşünməyə çağırıb.

Antibiotiklərdən yerli-yersiz istifadə, onların düzgün olmayan qəbulu antibakterial preparatlara davamlı olan mikrobların sayını artırmaqla bakterial infeksiyalardan ölümlərin çoxalmasına səbəb olur. Ona görə də alimlər antibiotikləri yalnız zəruri hallarda təyin və qəbul etməyi tövsiyə edirlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması, abunəçilərə daha rahat istifadə imkanının təmin edilməsi məqsədilə 08 aprel 2025-ci il tarixindən etibarən, yalnız üzərində istifadə müddəti qeyd edilən və müvafiq istifadə müddəti keçməmiş, fakturalı və fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan ödəniş (danışıq) kartlarından yararlanmaq mümkün olacaq. Nominalından asılı olmayaraq, bütün digər ödəniş (danışıq) kartları isə yararsız hesab ediləcək, müvafiq olaraq üzərində istifadə müddəti qeyd edilməyən və ya üzərindəki istifadə müddəti keçmiş danışıq kartları ilə nömrələrin hesabına vəsait keçirilməsi mümkün olmayacaq.

Əlavə məlumat: "Azercell Telekom" MMC təqdim etdiyi telekommunikasiya xidmətləri çərçivəsində abunəçilərin rahatlığını təmin etmək məqsədilə onlara danışıq kartları vasitəsilə, eyni zamanda alternativ vasitələrlə də nömrələrinə ödənişlər həyata keçirmək, balanslarını artırmaq imkanı verilir. Belə ki, abunəçilər bütün bank və poçtlardan, nağd pul vasitəsilə ödəmə köşklərindən (pay-point-lər), o cümlədən kredit və ya debit kartı (VISA, VISA Electron, Cirrus/Maestro, MasterCard/Eurocard) vasitəsilə ATM üzərindən, həmçinin köçürmə yolu ilə, www.azercell.com rəsmi internet səhifəsindən onlayn ödəmə üsulu ilə, həmçinin "a-kart" xidməti vasitəsilə də ödəmələri həyata keçirə bilərlər. "Azercell Telekom" MMC tərəfindən abunəçilərə danışıq kartlarını üzərindəki nominala uyğun qiymətə rəsmi dilerlərimizdən əldə etmək və danışıq kartının istifadə müddətinin keçməməsi, seriya və s. göstəricilərinin tamlığına diqqət etmək, həmçinin danışıq kartları əldə edərkən şifrəni 3-cü şəxslərə bildirməmək, danışıq kartlarında boya örtüyünü pozarkən itiuclu alətlərdən istifadə etməmək tövsiyə edilir.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

# Avstriyada hökumət böhranı yaranıb

## Bütün partiyalar seçkidə qalib gəlmiş ifrat sağçılarla koalisiyadan imtina edirlər

**Avstriya Prezidenti Aleksander Van der Bellen ötən ay keçirilmiş seçkilərdə ifrat sağçı Avstriya Azadlıq Partiyasının (FPÖ) səs çoxluğunu qazanmasına baxmayaraq, mühafizəkar Avstriya Xalq Partiyasının (ÖVP) lideri, hazırkı kansler Karl Nehammerdən koalisiya hökuməti qurmağı istəyib.**





Seçkilərin nəticələrinə görə, Herbert Kiklin rəhbərlik etdiyi partiya 28,85 faiz səs toplayıb və parlamentdə 183 yerdən 57-ni tutub.

Kikl bildirib ki, o, növbəti hökumətə rəhbərlik etməlidir, lakin bütün partiyalar FPÖ ilə koalisiya yaratmaqdan imtina ediblər.

Üç ən böyük partiya arasında aparılan danışıqlardan sonra Avstriya Prezidenti Aleksander Van der Bellen bildirib ki, Kikl onu kansler edəcək koalisiya tərəfdaşı tapa bilməyəcək.

Ölkənin 80 yaşlı prezidentinin televiziya ilə çıxışında dediyinə görə, 29 sentyabr parlament seçkiləri finiş xəttini birinci keçən partiyanın avtomatik olaraq hökumət qurmaq hüququnu qazanacağı yarış deyil. O əlavə edib ki, əgər bir partiya ölkəni müstəqil idarə etmək istəyirsə, 50 faizlik baryeri keçməlidir. 10, 20 və ya 30 faiz səs toplamaq bu məqsəd üçün kifayət deyil.

Avstriya Prezidenti, partiyası 26,5 faiz səslə ikinci olan kansler Karl Nehammerdən üçüncü yeri tutan sosial demokratlarla (SPÖ) koalisiya danışıqları aparmağı xahiş etdiyini bildirib.

Bununla belə, mühafizəkarlar və sosial demokratlar arasındakı koalisiya yalnız bir mandat çoxluğuna sahib olacaq. Nehammerin dediyinə əsasən, sabit parlament çoxluğunu təmin etmək üçün üçüncü tərəfdaş lazımdır. O, yaranmış vəziyyətlə bağlı jurnalistlərin suallarını cavablandırarkən deyib: "Bu danışıqların hökumətin yaradılmasına gətirib çıxaracağını bilmirəm. Lakin mən söz verə bilərəm ki, sabitlik, etibarlılıq və ölkəmiz üçün məsuliyyət ruhunda hərəkət edəcəyəm".

Öz növbəsində, Herbert Kikl Avstriya Prezidentinin hökuməti qurmaq üçün səsvermənin qalibinə etibar etməməklə "yoxlanılmış və sınaqlardan çıxmış prosesləri" pozduğunu vurğulayıb.

FPÖ lideri həmçinin bildirib ki, bu, bir çoxlarına şillə kimi görünə bilər. Ancaq sizə söz verirəm: son söz hələ deyilməyib. Bu, hekayənin sonu deyil.

55 yaşlı Herbert Kikl Ukraynaya hərbi yardım olunmasını dəstəkləmir və Rusiyaya qarşı tətbiq edilən sanksiyaların əleyhinədir. Sentyabrda Milli Şuraya (parlamentin aşağı palatası) keçirilən seçkilərin nəticələrinə görə, FPÖ 28,85 faiz, ÖVP 26,27 faiz, SPÖ 21,14 faiz səs toplayıb. FPÖ parlamentdəki 183 mandatdan 57-sini, ÖVP 51-ni, SPÖ isə 41-ni alıb.

Liberal NEOS və Yaşıllar partiyaları da parlamentə daxil olublar - onların müvafiq olaraq 18 və 16 mandatı var.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Azər Əmiraslanov, Azər Badamov, Vüqar Bayramov, Müşfiq Cəfərov, Heydər Əsədov, Aydın Hüseynov, Tahir Mirkişili, Rövşən Muradov, Əlibala Məhərrəmzadə, Məşhur Məmmədov, Əli Məsimli, Zaur Şükürov və Ziyad Səmədzadə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri Firudin Hacıyev Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4201
Sifariş 2423
Qiyməti 60 qəpik